# Dövlətə məxsus müəssisələrin korporativ idarəetmə təcrübələrinə dair İƏİT-in Qaydaları



OECD

# Dövlətə məxsus müəssisələrin korporativ idarəetmə təcrübələrinə dair İƏİT-in Qaydaları

OECD

İQTİSADİ ƏMƏKDAŞLIQ VƏ İNKİŞAF TƏŞKİLATI

İQTİSADİ ƏMƏKDAŞLIQ VƏ İNKİŞAF TƏŞKİLATI

İƏİT, 30 demokratik ölkənin hökumətlərinin qloballaşma ilə bağlı iqtisadi, ictimai və ətraf mühitin qorunması istiqamətlərində səylərini birləşdirən nadir forumdur. İƏİT həmçinin hökumətlərə korporativ idarəetmə, məlumatların ötürülməsi və əhalinin qocalması (orta yaşının çox olması) kimi yeni problemləri anlamaq üçün imkanın yaradılması və həll etmək üçün köməyin göstərilməsi məsələlərində əsas rol oynayır. Təşkilat, hökumətlərə müxtəlif siyasətlərlə bağlı təcrübələri ilə bölüşməyə, ümumi problemlərə cavab tapmağa, qabaqcıl təcrübələri müəyyən etməyə və yerli və beynəlxalq siyasətləri əlaqələndirmək üçün birgə işlər görməyə imkan verən bir mühit yaradır.

İƏİT-in üzvü olan ölkələr: Avstraliya, Avstriya, Belçika, Kanada, Çex Respublikası, Danimarka, Finlandiya, Fransa, Almaniya, Yunanıstan, Macarıstan, İslandiya, İrlandiya, İtaliya, Yaponiya, Koreya, Lüksemburq, Meksika, Hollandiya, Yeni Zelandiya, Norveç, Polşa, Portuqaliya, Slovakiya Respublikası, İspaniya, İsveç, İsveçrə, Türkiyə, Böyük Britaniya və Amerika Birləşmiş Ştatlarıdır. İƏİT-in işində Avropa İqtisadi Birliyinin Komissiyası iştirak edir.

İƏİT-in dərc etdiyi sənədlər Təşkilatın iqtisadi, sosial və ətraf mühitin qorunması məsələlərinə dair statistik məlumatlarını və tədqiqatlarını və üzv ölkələrin qəbul etdikləri razılaşmaları, tövsiyələri və standartları geniş yayır.

Fransız dilində aşağıdakı başlıq altında mövcuddur:

**Lignes directrices de l'OCDE sur le gouvernement d'entreprise des entreprises publiques**

IFC | International Finance Corporation
World Bank Group

Sənədin orijinal mətni İƏİT tərəfindən ingilis dilində aşağıdakı başlıq altında dərc edilmişdir:

OECD Guidelines in Corporate Governance of State-Owned Enterprises

Copyright 2005, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT), Paris.

Bütün hüquqlar qorunur

Copyright 2007, bu Azərbaycan variantı Beynəlxalq Maliyyə Korporasiyasına məxsusdur.

Paris, İƏİT-lə razılaşmaya əsasən dərc edilmişdir.

Azərbaycan dilinə tərcümənin keyfiyyəti və onun orijinal mətni ilə uyğunluğu Beynəlxalq Maliyyə Korporasiyasının məsuliyyətidir.

# *Giriş sözü*

*Dövlətə məxsus müəssisələrin korporativ idarəetməsi bir çox iqtisadiyyatlarda əsas məsələlərdən biridir. Lakin, bu günədək, hökumətlər bir çox hallarda iqtisadiyyatın mühüm hissəsini təşkil edən müəssisələrinə qarşı mülkiyyət hüquqlarından istifadə etmək qaydasını qiymətləndirməyə və təkmilləşdirməyə kömək edən heç bir beynəlxalq standart mövcud deyildir. Dövlətə Məxsus Müəssisələrin Korporativ İdarəetmə Təcrübələrinə dair İƏİT-in Qaydaları bu boşluğu doldurur və onların yaradılması müxtəlif maraqlı tərəflərin dünya üzrə marağına səbəb olmuşdur. İƏİT-in bu işi gördüyü zaman aldığı dəstək və Qaydaların özünə verilən dəstək məni bu sənədin İƏİT-in üzvü olan və olmayan ölkələrdə geniş yayılacağına və istifadə olunacağına inandırır.*

*Bu Qaydalara olan tələb bu sahədə siyasətin yaradılması işini izləyən heç bir kəsdə təhəccüb doğurmamalıdır. DMM-lərin korporativ idarəetməsi istiqamətində islahatlara başlayan ölkələrin təcrübəsi bu işin vacib, lakin mürəkkəb olduğunu göstərir. Ən böyük çətinlik dövlətin şuraya namizədləri təklif etmək və seçmək kimi mülkiyyət funksiyalarını həyata keçirməsinə görə məsuliyyət daşıması və eyni zamanda şirkətin gündəlik idarə olunmasına müdaxilə etməməsi arasında balansın yaradılması ilə bağlıdır. Digər bir çətinlik dövlət və özəl şirkətlərinin rəqabət apara biləcəyi bazarda hamı üçün bərabər şəraitin (level-playing field) yaradılacağının və hökumətlər tərəfindən tənzimləyici və nəzarət səlahiyyətlərindən istifadə edərək bazar iqtisadiyyatı münasibətlərinin pozulmayacağının təmin olunması ilə bağlıdır.*

*Praktiki təcrübəyə əsaslanaraq, hazırkı Qaydalar bu dilemmaların necə həll olunacağına dair konkret təkliflər verir. Məsələn, sənəddə dövlətin öz mülkiyyət funksiyalarını müstəqil surətdə həyata keçirən və ictimaiyyət üçün açıq mülkiyyət siyasətinə uyğun olan mərkəzləşdirilmiş qaydada sahiblik edən təşkilat və ya effektiv koordinasiya edilən təşkilatlar vasitəsilə həyata keçirməsi təklif olunur. Qaydalar həmçinin dövlətin mülkiyyət funksiyalarının və onun tənzimləyici funksiyalarından ciddi şəkildə ayrılmasını təklif edir. Düzgün tətbiq edildikdə, bu və digər təklif olunan islahatlar dövlətin öz mülkiyyət funksiyalarını peşəkar və məsuliyyətli qaydada yerinə yetirməsini və onun bizim iqtisadiyyatımızın bütün sektorlarında korporativ idarəetmənin təkmilləşdirilməsində müsbət rol oynamasını təmin etməkdə irəliləyəcəkdir. Nəticədə isə müəssisələr daha sağlam, daha rəqabətli və daha şəffaf olacaqdır.*

*İƏİT-in üzvü olan və olmayan bir çox ölkələrdən təcrübəli dövlət nümayəndələri və peşəkarlar bu Qaydaların hazırlanmasında köməklik göstərmişdirlər. Onların*

*açıq məsləhət prosesi vasitəsi ilə verdikləri təklifləri Qaydaların keyfiyyətli və əsaslı olmasına birbaşa təsir göstərmişdir. Mən öz konstruktiv işi ilə bu Qaydaların hazırlanmasını mümkün edən Dövlət Müəssisələrinin Aktivlərinin Özəlləşdirilməsinə və Korporativ İdarəetməsinə dair İƏİT-in İşçi Qrupunun bütün üzvlərinə və öz səyləri və rəhbərliyi ilə bu işin uğurla nəticələnməsinə kömək edən İşçi Qrupunun Sədri cənab Lars-Con Kederlanda öz dərin minnətdarlığımı bildirirəm. Mən həmçinin məsləhətləşmələrdə iştirak etmiş və bununla hazırkı sənədin hazırlanması zamanı onun ümumi keyfiyyətinə təsirini göstərmiş təşkilatlara təşəkkürümü bildirirəm. Sizin təcrübəniz və köməyiniz dəyərli və əvəzolunmazdır.*

*İnanıram ki, bu Qaydalar geniş yayılacaq və fəal istifadə ediləcəkdir. Onların hər bir ölkədə tətbiq olunması bir çox ölkələrin mütəxəssisləri arasında dialoqun aparılması və təcrübələrin mübadiləsi prosesi ilə müşahidə olunmalıdır. Beləliklə, İƏİT DMM-lərin korporativ idarəetməsini təşviq etmək məqsədilə İƏİT-in üzvü olan və olmayan ölkələr daxil olmaqla müzakirələr təşkil etməkdə davam edəcəkdir.*

Donald C. Conson
İƏİT-in Baş Katibi

# *Mündəricat*


Təşəkkür məktubu ......7
Preambula ......9
I. Dövlətə məxsus müəssisələr üçün effektiv hüquqi və tənzimləyici strukturun yaradilmasi ......12
II. Mülkiyyətçi qismində çixiş edən dövlət ......13
III. Səhmdarlara eyni yanaşma ......14
IV. Maraqlı tərəflərlə əlaqələr ......15
V. Açıqlama və şəffaflıq ......16
VI. Dövlət müəssisələrinin şuralarının vəzifələri ......17

*Birinci hissənin şərhi:*

I. Dövlətə məxsus müəssisələr üçün effektiv hüquqi və tənzimləyici strukturun yaradılması......18

*İkinci hissənin şərhi:*

II. Mülkiyyətçi qismində çıxış edən dövlət ......22

*Üçüncü hissənin şərhi:*

III. Səhmdarlara eyni yanaşma ......30

*Dördüncü hissənin şərhi:*

IV. Maraqlı tərəflərlə əlaqələr ......33

*Beşinci hissənin şərhi:*

V. Açıqlama və şəffaflıq ......36

*Altıncı hissənin şərhi:*

VI. Dövlət müəssisələrinin şuralarının vəzifələri ......41

# *Təşəkkür məktubu*

*Mən DMM-lərin aktivlərinin korporativ idarə edilməsinə dair İƏİT-in İşçi Qrupunun bütün üzvlərinə, xüsusilə də bu layihənin uğurlu olması üçün öz səylərini və təcrübələrini əsirgəməyən xanım Anita Rinqə və cənab Erik Preysa öz minnətdarlığımı bildirirəm. Mən həmçinin bizim konsultasiyalarımızda iştirak edən, təkliflərini verən və digər üsullarla Dövlətə Məxsus Müəssisələrin Korporativ İdarəetmə Təcrübələrinə dair İƏİT-in Qaydalarının dəyişkən mühitdə əhəmiyyətini vurğulamağa kömək edən dünyanın müxtəlif ölkələrindən olan rəsmi şəxslərə və ekspertlərə minnətdarlığımı bildirirəm.*

*Parisdə təşkil olunmuş iki yüksək səviyyəli yığıncaqların bütün iştirakçılarına, o cümlədən İbrahim Bedair Əbdül-Nəbi, Abdessalam Abudrar, Məhəmməd Adəm, Muxtar Azman, Sven Baeten, Georgi Banu, Biqitta Böhlin, Enzo Kardi, Gilyermo Kastilyo Justo, Qu Çanq, Joze Klemente Qomes, Eduardo Koutino Querra, Martin Kreq, Sikander Diuan, Mişel Difenbaxer, Evqeni Ditrix, Anne Dutiluel, Jozian Fankvinoveni, Lakşman Fernando, Con Forşou, Vladimir Qusakov, Klaus Xelberq, Tyebo Xepkema, Ann-Mari İdrak, Fernando İqreya, Suzan Ji, Yonq-Su Jeon, Xiaolianq Jia, Jan Juçelka, Məhəmməd Xan, Katrin Kimura, Daq Klakenberq, Pavel Kuta, Adrian Lajos, Heyn-Bin Li, Culiana Lema, Zaoksi Li, Akos Maçer, Jan-Aymon Massi, Tarcísio José Massote Godoy, Tatyana Medvedeva, Bernhard Meier, Kəsi Milsom, Kyunq-Jin Min, Do Ti Hong Min, Karlos Mladiniç, Benoit Mores, Ralf Müller, Reto Müllhaupt, Il Çonq Nam, Joao Karlos Parkinson De Kastro, Peter Pedlar, Horasio Pizarro, Çon Preskott, Abu Qora Qutaiba, Jan-Nöel Rey, Jürq Röteli, Jan-Pierre Sabourin, Eduardo Karnos Skalestski, Joaçim Şulte, Julia Sedova, Əhməd Şahizam Şariff, Malcolm Simpson, Tove E. Skevestad, Aleksey Timofeev, Dirk Tirez, Jens-Hermann Treuner, Rainer Viltş, Uin Vilyams, Simon Vong və Məhəmməd Kahiray Zaqlola xüsusi minnətdarlığımı bildirirəm.*

*Bundan əlavə, sənədin yüksək keyfiyyətli olması üçün öz tövsiyələrini vermiş ekspertlərə və təşkilatlara, o cümlədən Petra Aleksandru, Bistra Boeva, Dominik Dalne, Mariano A.Fabrisio, Riçard Frederik, Sezar Fuentes, Jayeş Kumar, Vilyam Livinqston, Roze Mbax, Xuan F.Mendizabal Frers, İra M.Millsteyn, Xose Mokillaza, Kalliroy Nikolis, Alfonso C.Revollo, Con R.Riger, Kristian Strencer, Corcia Sambunaris, Qrey Sauton, Pol Sviney, Arjen Van Balleqoyen, Teodoro Viqodski, Məhəmməd Kairi, Mahmud Zaqlol, "Asociación Venezolana de Ejecutivos" (AVE), Polşa İşçilər Konfederasiyası, Almaniyanın Federal Maliyyə Nazirliyi, "Force Ouvrière", Honq-Konqun Valyuta Mübadiləsi və Klirinq Ltd, İndoneziyanın Kapital Bazarına Nəzarət Agentliyi, Daxili Auditorlar İnstitutu (DAİ-IIA)-Moskva ofisi, İnstitusional Səhmdarlar Xidməti (İSX-İSS), Ali Audit İnstitutların Beynəlxalq Təşkilatı (AAİBT- INTOSAI), Ətraf Mühit Qoruyucularının Beynəlxalq Cəmiyyəti, New Horizons Qadınların*

*Təhsil Mərkəzi, NİKOİL, Polşanın Korporativ İdarəetmə Forumu (PKİF-PFCG), Beynəlxalq İctimai Xidmətlər, Malayziyanın Qiymətli Kağızlar Komitəsi, "Syndicat National Autonome des Personnels de l'Administration Publique" (SNAPAP), Türkiyənin İstehsalçılar və Biznesmenlər Asosiasiyası (TİBA-TUSAID) və Union Nationale des Syndicates Autonomes (UNSA) təşəkkürümü bildirirəm.*

*Həmçinin mən, İƏİT-in Məsləhət Xidməti Orqanlarına, Biznes və Sənaye üzrə Məsləhət Komitəsinə (BSMK-BIAC) və Həmkarlar İttifaqının Məsləhət Komitəsinə (HİMK-TUAC) və prosesdə iştirak edən beynəlxalq təşkilatlara, o cümlədən Afrika İnkişaf Bankına, Mühasiblərin Beynəlxalq Federasiyasına (MBF-IFAC) və Beynəlxaq Maliyyə Korporasiyasına (BMK-IFC) təşəkkür edirəm. Qlobal Korporativ İdarəetmə Forumu və Dünya Bankı həmçinin bu işə mühüm dəstək olmuşdurlar.*

*Nəhayət mən, İşçi Qrupuna kömək etmək üçün öz vaxtlarını ayıran və təcrübələri və bilikləri ilə bölüşən İƏİT-in Maliyyə və Şirkət Əlaqələri üzrə Direktoratın Katibliyinin əməkdaşları: Vilyam Vitrel, Rayner Qeyder, Karolin Ervin, Robert Ley, Mats İsakson, Qrant Kirkpatrik, Matilda Mesnard və İjeoma İnyamaya öz dərin minnətdarlığımı bildirirəm.*

# *Preambula*

Bir çox İƏİT ölkələrində Dövlətə Məxsus Müəssisələr (DMM) hələ də Ümumi Daxili Məhsulun (ÜDM), iş yerlərinin və bazarın kapitalının mühüm hissəsini təşkil edir. Bundan əlavə, dövlət müəssisəsələri enerji, nəqliyyat və telekomunikasiya kimi əhalinin geniş kütləsi və biznes sektorunun digər hissələri üçün çox mühüm olan komunal və infrastruktur sahələrində adətən üstünlük təşkil edirlər. Beləliklə, DM-lərində korporativ idarəetmə onların ölkənin ümumi iqtisadi səmərəliliyinə və rəqabətli olmasına müsbət təsir göstərməsini təmin etmək üçün vacibdir. İƏİT-in təcrübəsi göstərir ki, DMM-lərdə qabaqcıl korporativ idarəetmə bu müəssisələri potensial alıcılar üçün daha cəlbedici etdiyinə və onların dəyərini artırdığına görə iqtisadi cəhətdən səmərəli özəlləşdirmə üçün mühüm bir amildir.

İƏİT-in üzvü olmayan bir sıra ölkələr həmçinin iri dövlət sektoruna malikdirlər ki, bəzi hallarda bu sektor hətta onların iqtisadiyyatının əsas hissəsini təşkil edir. Bu ölkələr bir çox hallarda öz DMM-lərin təşkili və idarə edilməsi üsullarını dəyişdirir və dövlət səviyyəsində islahatları dəstəkləmək üçün İƏİT ölkələri ilə təcrübələrini bölüşürlər.

Məhz bu səbəbdən 2002-ci ilin iyun ayında Korporativ İdarəetməyə dair İƏİT-in İşçi Qrupu Dövlət Müəssisəsələrinin Aktivlərinin Özəlləşdirilməsinə və Korporativ İdarəetməsinə dair İşçi Qrupundan DMM-lərin qabaqcıl korporativ idarəetmə təcrübələrinə dair məcburi olmayan bir qaydaları hazırlamağı xahiş etmişdir. İƏİT-in üzvü olan ölkələrin, Dünya Bankının və müşahidəçi qismində BVF nümayyəndələrindən ibarət olan İşçi Qrupu bu Qaydaların hazırlanması zaman hərtərəfli məsləhətləşmələr keçirmişdir. İşçi Qrupu DMM-lərin şura üzvləri və baş icraçı direktorları, dövlət audit orqanları, ittifaqlar və qanunverici orqanlarının nümayyəndələri kimi geniş maraqlı şəxslər kütləsindən məsləhətlər almış və İƏİT-in üzvü olmayan ölkələrin nümayyəndələri ilə geniş məsləhətləşmələr aparmışdır. Qaydaların ilkin nüsxəsi ictimaiyyətin rəyini bilmək üçün İƏİT-in internet saytında yerləşdirilmiş və nəticədə alınmış çoxsaylı faydalı və konstruktiv təkliflər həmçinin geniş ictimaiyyət üçün həmin saytda yerləşdirilmişdir.

Bu Qaydalar əsaslandığı və tam uyğun olduğu İƏİT-in Korporativ İdarəetmə Prinsiplərinə[1] əlavə kimi qəbul edilməlidir. Qaydalar DMM-lərin korporativ idarəetməsi üçün spesifik olan məsələlərə istiqamətləndirilmiş və bu baxımdan dövlət mülkiyyətçi qismində götürülərək əsas diqqət qabaqcıl korporativ idarəetməni təmin edəcək siyasətlərə yönəldilmişdir. Lakin, Qaydalar İƏİT-in üzvü olan və

olmayan ölkələri hər hansı özəlləşdirmə siyasətlərinin və ya proqramlarının həyata keçirilməsindən çəkindirmək və ya buna mane olmaq məqsədini daşımır.

İllər boyu kommersiya müəssisələrinin dövlət mülkiyyətində olmasının səbəbləri ölkələr və sahələr üzrə fərqlənir və səciyyəvi olaraq sosial, iqtisadi və strateji maraqları əhatə edir. Buraya sahə siyasəti, regional inkişaf, ictimai məhsulları n tədarükü və "təbii" inhisarların mövcudluğu daxildir. Lakin, son bir neçə onilliklərdə bazarın qloballaşması, texnoloji dəyişikliklər və keçmişdə inhisara alınmış bazarların dövlət tərəfindən tənzimlənməsinin dayandırılması/azaldılması dövlət sektoruna dəyişikliklərin edilməsini və onun yenidən strukturlaşdırılmasını tələb edir. Bu faktlar hazırkı qaydalarda istifadə olunan İƏİT-in son iki hesabatlarında tədqiq edilmişdir.[2]

Öz mülkiyyət funksiyalarını yerinə yetirmək üçün dövlət özəl sektor üçün yararlı olan alətlərdən, o cümlədən İƏİT-in Korporativ İdarəetmə Prinsiplərindən istifadə edərək faydalana bilər. Bu xüsusilə listinqdən keçmiş DMM-lərə aiddir. Lakin, DM-lər həmçinin fərqli idarəetmə problemləri ilə üzləşirlər. Bu problemlərdən biri ondan ibarətdir ki, DM-lər dövlətin hədsiz siyasi müdaxiləsindən zərər çəkdiyi kimi, onun tamamilə passiv və zəyif mülkiyyətçiliyindən də ziyan görə bilər. Burada həmçinin məsuliyyətin azalması baş verə bilər. Adətən DMM-lər özəl şirkətlərdə menecmentin fəaliyyətinə nəzarət etmək üçün mühüm olan iki əsas təhlükələrdən, satın-alınmadan və bankrotluqdan qorunmuşdurlar. Daha vacib isə, korporativ idarəetmə ilə bağlı çətinliklər dövlət müəssisəsinin fəaliyyətinə görə əsas cavabdeh şəxs asanlıqla və aydın şəkildə müəyyən edilmədən məsuliyyətin bir sıra agentlər (menecment, şura, sahiblik edən təşkilat, nazirliklər və hökumət) tərəfindən daşınması faktından irəli gəlir. Effektiv qərar qəbulunu və qabaqcıl korporativ idarəetməni təmin etmək üçün bu cür mürəkkəb məsuliyyətlər zəncirini strukturlaşdırmaq çətin məsələdir.

Bu Qaydalar DMM-lərin fəaliyyətinin təkmilləşdirilməsində hökumələrə kömək edəcək ümumi məsləhətlərin verilməsini nəzərdə tutduğu üçün, bu Qaydaların müəyyən bir dövlət müəssisəsinin idarəedilməsində tətbiq edilməsinə dair qərar təcrübə nöqteyi nəzərindən verilməlidir. Hazırkı Qaydalar müəssisələrin həmçinin ictimai məqsədlər daşıyıb-daşımamasından asılı olmayaraq, ayrıca hüquqi formaya (yəni, dövlət idarəetməsindən ayrı olan) və kommersiya fəaliyyətinə (yəni, gəlirlərin əsas hissəsini satışdan və xidmətlərə görə ödənişlərdən əldə edən) malik DMM-lərə istiqamətləndirilmişdir. Bu DMM-lər iqtisadiyyatın rəqabətli və rəqabətsiz (rəqabət olan və olmayan) sahələrində fəaliyyət göstərə bilərlər. Lazım olduqda, bu Qaydalar listinqdən keçmiş və ya keçməmiş DMM-ləri və yaxud tamamilə, böyük və ya kiçik hissəsi dövlətə məxsus olan müəssisələri, onların korporativ idarəetmə məsələləri fərqli olduğuna görə fərqləndirir. Hazırkı Qaydalar yuxarıda qeyd edilmiş

müəssisələrin listinqdən keçib-keçməməsindən asılı olmayaraq, onların törəmə müəssisələrinə də tətbiq edilə bilər.

Hazırkı Qaydaların əsasən mərkəzi və federal hökumətin mülkiyyətində olan kommersiya müəssisələri üçün nəzərdə tutulduğuna baxmayaraq, hökumətlər bu qaydaların həmçinin müəssisələrə sahib olan yerli hökumət orqanları tərəfindən istifadə edilməsini təşviq edə bilərlər. Onlar həmçinin korporativ formada olub-olmamasına baxmayaraq, xüsusilə mühüm ictimayi məqsədləri həyata keçirən qeyri-kommersiya DMM-lər üçün faydalı ola bilərlər. Bütün bu kateqoriyalara aid olan DMM-lərin peşəkar idarə olunması və qabaqcıl korporativ idarəetmə təcrübələrini tətbiq etməsi dövlətin və ictimaiyyətin marağındadır.

Bu Qaydalarda "DMM" anlayışı tam, majoritar və ya mühüm minoritar mülkiyyət vasitəsilə üzərində dövlətin mühüm nəzarəti olan müəssisələrə aid edilir. Lakin, Qaydaların bir çox hissələri dövlətin nisbətən kiçik paya malik olmasına baxmayaraq məsuliyyətli və məlumatlı səhmdar qismində çıxış etdiyi şirkətlər üçün həmçinin faydalıdır. Həmin qaydada, "sahiblik edən təşkilat" dövlətin mülkiyyət hüquqlarının həyata keçirilməsinə görə məsuliyyət daşıyan dövlət müəssisəsini bildirir, istər Nazirliyin xüsusi Departamenti, istərsə də avtonom agentlik və ya digəri olsun. Nəhayət, İƏİT Prinsiplərində olduğu kimi, bu sənəddə də "şura" anlayışı İƏİT-in üzvü olan və olmayan ölkələrdə istifadə olunan şura strukturunun müxtəlif modellərini bildirir. Bir çox ölkələrdə tətbiq olunan ənənəvi iki pilləli sistemdə, "şura" anlayışı "müşahidə şurasını", "əsas vəzifəli şəxslər" isə "idarə heyətini" bildirir.

Hazırkı sənəd iki hissəyə bölünmüşdür. Sənədin birinci hissəsində təqdim olunan Qaydalar aşağıdakı sahələri əhatə edir: I) Dövlətə məxsus müəssisələr üçün effektiv hüquqi və tənzimləyici strukturun (özülün) yaradılması; II) Mülkiyyətçi qismində çıxış edən dövlət; III) Səhmdarlara eyni yanaşma; IV) Maraqlı tərəflərlə əlaqələr; V) Açıqlama və şəffaflıq; VI) DMM-lərin şuralarının vəzifələri. Bu bəndlərin hər biri yağlı kursiv şriftlə yazılmış bir Qayda ilə başlayır və bir sıra köməkçi sub-qaydalarla müşahiyət olunur. Sənədin ikinci hissəsi, oxucuya Qaydaların məntiqini başa düşməyə kömək edən şərhlərdən ibarətdir. Bu şərhlərdə hazırkı Qaydaların təcrübi istifadəsi üçün faydalı ola bilən əsas tendensiyalar təsvir edilir və digər alternativ tətbiqi üsullar və misallar təklif olunur.

---

[1] İƏİT-in Korporativ İdarəetmə Prinsipləri 2004

[2] "Dövlətə məxsus müəssisələrdə Korporativ İdarəetmə: İƏİT ölkələrində aparılmış tədqiqat", İƏİT 2005 və "Dövlətə məxsus müəssisələrin özəlləşdirilməsi" İƏİT 2003

# I. DÖVLƏTƏ MƏXSUS MÜƏSSİSƏLƏR ÜÇÜN EFFEKTİV HÜQUQİ VƏ TƏNZİMLƏYİCİ STRUKTURUN YARADILMASI

***DMM-lər üçün hüquqi və tənzimləyici struktur bazar iqtisadiyyatı münasibətlərinin pozulmaması məqsədilə dövlət və özəl şirkətlərinin rəqabət apara biləcəyi bazarda hamı üçün bərabər şəraitin yaradılmasını təmin etməlidir. Bu struktur İƏİT-in Korporativ İdarəetmə Prinsipləri əsasında qurulmalı və onlara uyğun olmalıdır.***

**A.** DMM-lər üçün müəyyən edilmiş şərtlərə təsir göstərə biləcək dövlətin mülkiyyət funksiyası və bazara təsir göstərə biləcək digər dövlət funksiyaları, xüsusilə də bazarın tənzimlənməsi ilə bağlı funksiyaları arasında aydın bölgü aparılmalıdır.

**B.** Hökumətlər DMM-lərin əməliyyat təcrübələrini və hüquqi formanı sadələşdirməli və təkmilləşdirməlidir. Onların hüquqi forması kreditorlara iddialar irəli sürməyə və müflisləşmə prosedurlarına başlamağa imkan verməlidir.

**C.** DMM-lərin ictimai xidmətlərlə bağlı ümumi qəbul olunmuş normalardan artıq üzərinə götürməli olduğu öhdəliklər və vəzifələr qanunlar və ya qaydalarla aydın şəkildə müəyyən edilməlidir. Bu cür öhdəliklər və vəzifələr həmçinin geniş ictimaiyyətə açıqlanmalı və müvafiq xərclər şəffaf qaydada ödənilməlidir.

**D.** Ümumi qanunların və qaydaların tətbiqində DMM-lər üçün istisnalar müəyyən edilməməlidir. Maraqlı tərəflər, o cümlədən rəqiblər, öz hüquqlarının pozulduğunu hesab etdikdə onları effektiv üsullarla bərpa etmək və qərəzsiz məhkəmə qərarının çıxarılmasına nail olmaq imkanına malik olmalıdırlar.

**E.** Hüquqi və tənzimləyici struktur DMM-lərə şirkətin məqsədlərinə nail olunması məqsədilə kapitalın strukturunda tələb olunan dəyişikliklərin edilməsi üçün kifayət qədər çevik olmağa imkan verməlidir.

**F.** DMM-lərin maliyyə resurslarına çıxışı rəqabətlilik prinsipi əsasında qurulmalıdır. Onların dövlət bankları, dövlət maliyyə institutları və digər dövlət şirkətləri ilə əlaqələri sırf komersiya əsaslarında qurulmalıdır.

## II. MÜLKİYYƏTÇİ QİSMİNDƏ ÇIXIŞ EDƏN DÖVLƏT

***Dövlət məlumatlı və fəal mülkiyyətçi qismində çıxış etməli və DMM-lərin, tələb olunan peşəkarlıq və effektivlik səviyyəsi qorunmaqla, şəffaf və hesabatlı şəkildə idarə edilməsini təmin edən aydın və yekdil mülkiyyət siyasətini müəyyən etməlidir.***

**A.** Hökumət dövlət mülkiyyətçiliyinin ümumi məqsədlərini, DMM-lərin korporativ idarəetməsində dövlətin rolunu və həmin siyasətin necə tətbiq ediləcəyini müəyyən edən mülkiyyət siyasətini hazırlamalı və dərc etməlidir.

**B.** Hökumət DMM-lərin gündəlik idarə edilməsinə müdaxilə etməməli və onlara müəyyən edilmiş məqsədlərə nail olmaq üçün tam əməliyyat sərbəstliyini verməlidir.

**C.** Dövlət ona məxsus müəssisələrin şuralarına öz vəzifələrini yerinə yetirmək imkanını verməli və onların müstəqilliyinə hörmətlə yanaşmalıdır.

**D.** Dövlət idarəciliyi çərçivəsində mülkiyyət hüquqlarından istifadə etmə aydın şəkildə müəyyən edilməlidir. Buna nail olmağa koordinasiya edən təşkilatın yaradılması və ya, daha münasib, mülkiyyət funksiyasının mərkəzləşdirilməsi kömək edə bilər.

**E.** Koordinasiya və ya sahiblik edən təşkilat Parlament kimi təmsiledici seçkili orqanlara hesabat verməli və dövlət ali audit institutları daxil olmaqla, müvafiq dövlət orqanları ilə aydın şəkildə müəyyən edilmiş əlaqələr qurmalıdır.

**F.** Dövlət fəal mülkiyyətçi olaraq hər bir şirkətin hüquqi strukturuna uyğun olaraq öz mülkiyyət hüquqlarından istifadə etməlidir. Onun əsas vəzifələrinə aşağıdakılar daxildir:

1. Səhmdarların Ümumi Yığıncağında təmsil olunmaq və dövlətə məxsus olan səhmlərlə səs vermək.

2. Bütünlüklə və ya əsas hissəsi dövlətə məxsus olan müəssisələrdə şura üzvlərinin namizədliklərinin düzgün və şəffaf qaydada irəli sürülməsi prosedurlarını tətbiq etmək və bütün DMM-lərin şuralarının təyin edilməsində fəal iştirak etmək.

3. DMM-lərin fəaliyyətinin müntəzəm monitorinqinə və qiymətləndirilməsinə imkan verən hesabatlıq sisteminin yaradılması.

4. Hüquq sistem və dövlətin mülkiyyətçilik səviyyəsi imkan verdikdə, kənar auditorlarla və xüsusi dövlət nəzarəti orqanları ilə daimi dialoqun aparılması.

5. DMM-lərin şura üzvlərinin mükafatlandırılması sisteminin şirkətin uzun-müddətli maraqlarına qulluq etməsini və peşəkar mütəxəssisləri cəlb etməyə və motivasiya etməyə qadir olduğunu təmin etmək.

## III. SƏHMDARLARA EYNİ YANAŞMA

***Dövlət və DMM-lər bütün səhmdarların hüquqlarını tanımalı və İƏİT-in Korporativ İdarəetmə Prinsiplərinə uyğun olaraq onlara eyni yanaşmanı təmin etməli və korporativ məlumatı əldə etmək imkanını verməlidirlər.***

**A.** Dövlətin koordinasiya və ya sahiblik edən təşkilatı və DMM-lər bütün səhmdarlara eyni yanaşmanı təmin etməlidirlər.

**B.** DMM-lər bütün səhmdarlara münasibətdə yüksək dərəcədə şəffaflığa riayət etməlidir.

**C.** DMM-lər bütün səhmdarlarla əlaqələrin yaradılması və məsləhətləşmələrin aparılması siyasətini müəyyən etməlidir.

**D.** Şuranın seçilməsi kimi əsas korporativ qərarların qəbulunda iştirak edə bilməsi üçün minoritar səhmdarların ümumi yığıncaqda iştirak etməsi asanlaşdırılmalıdır.

## IV. MARAQLI TƏRƏFLƏRLƏ ƏLAQƏLƏR

***Dövlət mülkiyyəti siyasəti DMM-lərin maraqlı tərəflərə qarşı məsuliyyətlərini tam tanımalı və onlardan maraqlı tərəflərlə münasibətləri barədə hesabat vermələrini tələb etməlidir.***

**A.** Hökumətlər, koordinasiya və ya sahiblik edən təşkilat və DMM-lər maraqlı tərəflərin qanunla və ya ikitərəfli sazişlərlə müəyyən edilmiş hüquqlarını tanımalı və qəbul etməlidir, və bu məsələ ilə bağlı İƏİT-in Korporativ İdarəetmə Prinsiplərinə müraciət etməlidirlər.

**B.** Listinqdən keçmiş və ya iri DMM-lər, o cümlədən mühüm ictimai məqsədlərə qulluq edən DMM-lər maraqlı tərəflərlə əlaqələr barədə hesabat verməlidirlər.

**C.** DMM-lərin şuralarından daxili etika məcəllələrinə riayət etmə proqramlarının hazırlanması, tətbiq edilməsi və çatdırılması tələb edilməlidir. Bu etika məcəllələri ölkə normalarına əsaslanmalı, beynəlxalq öhdəliklərə uyğun olmalı, və şirkət və onun törəmələrinə şamil edilməlidir.

# V. AÇIQLAMA VƏ ŞƏFFAFLIQ

***DMM-lər İƏİT-in Korporativ İdarəetmə Prinsiplərinə uyğun olaraq şəffaflığın yüksək standartlarına riayət etməlidir.***

**A.** Koordinasiya və ya sahiblik edən təşkilat DMM-lərə dair yekdil və məcmu hesabatlıq sistemini hazırlamalı və hər il dövlətə məxsus müəssisələr haqqında məcmu hesabatı dərc etməlidir.

**B.** DMM-lər effektiv daxili audit prosedurlarını hazırlamalı və şura və audit komitəsi və ya şirkətin ekvivalent orqanı tərəfindən monitorinq edilən və bu orqanlara birbaşa hesabat verən daxili audit struktur bölməsini yaratmalıdır.

**C.** DMM-lər, xüsusilə iri müəssisələr, beynəlxalq standartlara uyğun olaraq illik müstəqil kənar auditdən keçməlidir. Xüsusi dövlət nəzarəti prosedurlarının mövcudluğu müstəqil kənar auditi əvəz etmir.

**D.** DMM-lər listinqdən keçmiş şirkətlərlə eyni yüksək keyfiyyətli mühasibat və audit standartlarına riayət etməlidirlər. İri və ya listinqdən keçmiş DMM-lər maliyyə və qeyri-maliyyə məlumatlarını yüksək keyfiyyətli beynəlxalq səviyyədə qəbul olunmuş standartlara uyğun olaraq açıqlamalıdırlar.

**E.** DMM-lər İƏİT-in Korporativ İdarəetmə Prinsiplərində təsvir edilmiş bütün məsələlərə dair mühüm məlumatı açıqlamalı, o cümlədən mülkiyyətçi kimi dövlətin və geniş ictimaiyyətin diqqəti əhəmiyyətli sahələrə yönəltməlidir.

Bu cür məlumata aşağıdakılar daxildir:

1. İctimaiyyət üçün şirkətin məqsədləri və onların yerinə yetirilməsi barədə aydın bəyanat.

2. Şirkətin mülkiyyət və səsvermə strukturu.

3. Hər hansı mühüm risk faktorları və bu riskləri idarə etmək üçün görülmüş tədbirlər.

4. Hər hansı maliyyə yardımı, o cümlədən dövlətdən alınmış təminatlar və dövlətə məxsus müəssisə adından götürülmüş öhdəliklər.

5. Əlaqədar təşkilatlarla hər hansı mühüm əməliyyatlar.

# VI. DÖVLƏT MÜƏSSİSƏLƏRİNİN ŞURALARININ VƏZİFƏLƏRİ

***DMM-lərin şuraları strateji idarəetmə funksiyasını yerinə yetirmək və menecmentin fəaliyyətinin monitorinqini aparmaq üçün lazım olan səlahiyyətlərə, səriştəyə və obyektivliyə malik olmalıdır. Onlar düzgün hərəkət etməli və öz hərəkətlərinə görə cavabdeh olmalıdırlar.***

**A.** DMM-lərin şuralarının səlahiyyətləri aydın şəkildə müəyyən edilməli və onlar şirkətin fəaliyyətinə görə əsas məsuliyyət daşımalıdırlar. Şura şirkət sahibləri qarşısında tam cavabdeh olmalı, şirkətin maraqlarına qulluq etməli və bütün səhmdarlara eyni yanaşmalıdır.

**B.** DMM-lərin şuraları menecmentin fəaliyyətinin monitorinqi və strateji idarəetmə funksiyalarını hökumət və sahiblik edən təşkilat tərəfindən müəyyən edilmiş məqsədlərə uyğun aparmalıdır. Onlar Baş İcraçı Direktoru təyin etmək və işdən azad etmək səlahiyyətinə malik olmalıdırlar.

**C.** DMM-lərin şuraları o qaydada təşkil olunmalıdır ki, onlar obyektiv və müstəqil qərar verməyə qadir olsunlar. Qabaqcıl təcrübələr Sədr vəzifəsinin Baş İcraçı Direktor vəzifəsindən ayrı olmasını tələb edir.

**D.** İşçilərin şurada təmsil olunması tələb olunursa, bu təmsilçiliyin effektiv olacağına və şuranın bacarıqlarının, məlumatlılığının və müstəqilliyinin artırılmasına kömək edəcəyinə təminat verən mexanizmlər yaradılmalıdır.

**E.** Lazım olduqda, DMM-lərin şuraları öz funksiyalarını, o cümlədən audit, risklərin idarəedilməsi və mükafatlandırma məsələlərinə dair vəzifələrini yerinə yetirməyə onlara kömək edən xüsusi komitələr yarada bilərlər.

**F.** DMM-lərin şuraları öz fəaliyyətlərinin illik qiymətləndirilməsini aparmalıdırlar.

*Birinci hissənin şərhi:*

## I. DÖVLƏTƏ MƏXSUS MÜƏSSİSƏLƏR ÜÇÜN EFFEKTİV HÜQUQİ VƏ TƏNZİMLƏYİCİ STRUKTURUN YARADILMASI

***DMM-lər üçün hüquqi və tənzimləyici struktur bazar iqtisadiyyatı münasibətlərinin pozulmaması məqsədilə dövlət və özəl şirkətlərinin rəqabət apara biləcəyi bazarda hamı üçün bərabər şəraitin yaradılmasını təmin etməlidir. Bu struktur İƏİT-in Korporativ İdarəetmə Prinsipləri əsasında qurulmalı və onlara uyğun olmalıdır.***

DMM-lərin fəaliyyət göstərdiyi hüquqi və tənzimləyici struktur adətən mürəkkəb olur. Həmin struktur yekdil və aydın olmadıqda, bu bazar iqtisadiyyatı münasibətlərinin pozulmasına və istər menecmentin, istər də mülkiyyətçi kimi dövlətin cavabdehliyinə mənfi təsir göstərə bilər. Rəhbərlik arasında vəzifələrin düzgün bölünməsi, və aydın və yekdil tənzimləyici strukturla birgə hüquqi formaların sadələşdirilməsi DMM-lərdə korporativ idarəetmənin təkmilləşdirilməsinə kömək edə bilər.

***A. DMM-lər üçün müəyyən edilmiş şərtlərə təsir göstərə biləcək dövlətin mülkiyyət funksiyası və bazara təsir göstərə biləcək digər dövlət funksiyaları, xüsusilə də bazarın tənzimlənməsi ilə bağlı funksiyaları arasında aydın bölgü aparılmalıdır.***

Dövlət çox zaman bazar tənzimləyicisi və kommersiya fəaliyyəti ilə məşğul olan, xüsusilə də son zamanlarda dövlət tənzimlənməsindən azad olmuş və çox vaxt müəyyən hissəsi özəlləşdirilmiş DMM-lərin sahibi kimi ikili rol oynayır. Belə hallarda dövlət eyni zamanda əsas bazar iştirakçısı və arbitr rolunu oynayır. Bu səbəbdən mülkiyyətçi və bazar tənzimləyicisi kimi dövlətin vəzifələrinin tam inzibati bölünməsi DMM-lər və özəl şirkətlərə bərabər şəraitin yaradılması və rəqabətin pozulmaması üçün fundamental şərtdir. Vəzifələrin bu cür bölünməsi İƏİT-in Tənzimləyici İslahatlar Prinsipləri ilə də tövsiyyə edilir.

Digər mühüm məsələ DMM-lərdən iqtisadi sahə üzrə siyasəti müəyyən etmək üçün bir alət kimi istifadə edilməsidir. Bu, asanlıqla dövlətin iqtisadi sahəsi üzrə siyasəti ilə bağlı vəzifələri və mülkiyyət funksiyyaları arasında qarışıqlığa və mənafelərin toqquşmasına gətirib çıxara bilər, xüsusilə də iqtisadi sahə üzrə siyasətə görə məsuliyyət və mülkiyyət funksiyaları eyni sahə və ya sektor üzrə nazirlik tərəfindən daşındıqda. İqtisadi sahə üzrə siyasətin mülkiyyətdən ayrılması dövlətin mülkiyyətçi kimi müəyyənləşdirilməsini təkmilləşdirəcək və məqsədlərin müəyyən edilməsində və fəaliyyətin nəticələrinə dair monitorinqin aparılmasında şəffaflığı qoruyacaqdır. Lakin, bu cür bölgü iki funksiya arasında tələb olunan uzlaşmalara mane olmur.

Mənafelər toqquşmasının qarşısını almaq üçün, mülkiyyət funksiyasının həmçinin DMM-lərin müştəriləri və ya təchizatçıları ola biləcək hər hansı dövlət idarəçiliyində olan təşkilatlardan aydın şəkildə ayrılması tələb olunur. Ümumi təchizat qaydaları digər şirkətlərə olduğu kimi DMM-lərə də aid edilir. Ədalətli təchizata mane olan qanuni və ya qeyri-qanuni maneələr götürülməlidir.

DMM-lərə dair dövlətin müxtəlif rolları arasında effektiv bölgü aparıldıqda həm güman edilən həm də mövcud olan mənafelərin toqquşması halları nəzərə alınmalıdır.

***B. Hökumətlər DMM-lərin fəaliyyət göstərdiyi əməliyyat təcrübələrini və hüquqi formanı sadələşdirməli və təkmilləşdirməlidir. Onların hüquqi forması kreditorlara iddialar irəli sürməyə və müflisləşmə prosedurlarına başlamağa imkan verməlidir.***

DMM-lər xüsusi və bəzi hallarda digər şirkətlərin malik olduğu formadan fərqli təşkilati-hüquqi formaya malik ola bilərlər. Bu forma xüsusi məqsədləri və ya ictimai maraqları, o cümlədən müəyyən maraqlı tərəflərin xüsusi olaraq qorunmasını əks etdirə bilər. Bu xüsusilə, muzdları tənzimləyici aktlarla/orqanlarla müəyyən edilmiş və pensiya hüquqları və, dövlət qulluqçularına verilən təminatlara ekvivalent olaraq, ixtisarlara qarşı qorunma vasitələri ilə təmin edilmiş işçilərə aiddir. Bir çox hallarda, DMM-lər xüsusi hüquqi statuslarına görə müflisləşmə və iflas prosedurlarından əhəmiyyətli dərəcədə qorunmuş olurlar. Bəzi hallarda bu, ictimai xidmətlərin davamlı göstərilməsinin təmin etmək üçün edilir.

Belə olan təqdirdə, DMM-lər çox zaman məhdud məsuliyyətli özəl şirkətlərdən aşağıdakılarla fərqlənirlər: 1) şuranın, menecmentin və nazirliklərin müvafiq səlahiyyətləri ilə; 2) bu şuraların tərkibi və strukturları ilə; 3) müəyyən maraqlı tərəflərə, xüsusən işçilərə, məsləhət vermək və qərar qəbul etmək üçün verilmiş hüquqların dərəcəsi ilə; 4) açıqlamaya dair tələblərlə və, yuxarıda qeyd olunduğu kimi, müflisləşmə və iflas prosedurlarının onlara nə dərəcədə şamil edilməsi ilə. DMM-lərin hüquqi forması bu müəssisələrin fəaliyyətlərinin yeni sahələrə və/və ya xarici ölkələrə yönəlməsinin və ya genişlənməsinin qarşısını almaq üçün həmçinin onların fəaliyyətinin dəqiq tərifini daxil edir. Bu məhdudiyyətlər dövlət vəsaitlərindən sui-istifadənin qarşısını almaq, həddindən artıq heysiyyətli artım strategiyasına sədd qoymaq və ya DMM-ləri gizli texnologiyaları ixrac etməkdən çəkindirmək üçün qanuni şəkildə müəyyənləşdirilmişdir.

Son zamanlar bəzi ölkələrdə DMM-lərin xüsusi hüquqi formaları dövlət tərəfindən tənzimlənmənin azalmasına, dövlət yardımının daha diqqətli təhlil olunmasına və bir DMM-lərin digər DMM-ləri maliyyələşdirməsi faktlarının artmasına bir cavab olaraq inkişaf etmişdir. DMM-lərə onların hüquqi formasına uyğun olaraq icazə verilmiş fəaliyyət növlərinə dair məhdudiyyətlər bir qədər azaldılmışdır. Bəzi ölkələrdə, hüquqi formalarda dəyişikliklər işçilərin hüquqlarının qorunmasına, xüsusilə da onların pensiya hüquqlarına dair dövlət öhdəliyinin götürülməsi ilə müşaiyət olunmuşdur.

Dövlət DMM-lərin hüquqi formasını təkmilləşdirdikdə, dövlət (hökumət) mümkün qədər korporativ qanunvericiliyə əsaslanmalı və müəssisənin məqsədləri üçün qəti surətdə tələb olunmadıqda xüsusi hüquqi formanın yaradılmasından çəkinməlidir. DMM-lərin hüquqi formasının təkmilləşdirilməsi şəffaflığı artıracaq və effektivliyin qiymətləndirilməsi vasitəsi ilə nəzarətin həyata keçirilməsinə kömək edəcəkdir. Bu həmçinin dövlət tərəfindən tənzimlənmənin azaldığı və rəqabətli bazarlarda özəl şirkətlər üçün eyni şəraitin yaradılmasına kömək edəcəkdir.

Hüquqi formanın təkmilləşdirilməsi kommersiya fəaliyyəti ilə məşğul olan və rəqabətli, açıq bazarlarda işləyən DMM-lərə tətbiq edilməlidir. Bu özəl mülkiyyətçilərin adətən istifadə etdikləri vasitələrdən və alətlərdən həmçinin dövlətin də mülkiyyətçi kimi istifadə edə biləcəyinə yönəldilməlidir. Bu səbəbdən, təkmilləşdirmə işləri aparıldıqda əsas diqqət şirkətin idarəetmə orqanlarının roluna və səlahiyyətlərinə və həmçinin şəffaflıq və açıqlamaya dair öhdəliklərə verilməlidir.

DMM-lərin hüquqi formalarının dəyişdirilməsi həddindən artıq mürəkkəbdirsə, alternativ olaraq müəyyən spesifik qaydaların daha geniş tətbiq edilməsi vasitəsilə, məsələn onların xüsusi formalara malik DMM-lərə şamil edilməsi və ya həmin müəssisələri bu cür spesifik qaydaların müddəalarına, xüsusən də açıqlamaya dair tələblərə könüllü olaraq riayət etməyə çağırmaqla, onların əməliyyat təcrübələri təkmilləşdirilə bilər.

***C. DMM-lərin ictimai xidmətlərlə bağlı ümumi qəbul olunmuş normalardan artıq üzərinə götürməli olduğu öhdəliklər və vəzifələr qanunlar və ya qaydalarla aydın şəkildə müəyyən edilməlidir. Bu cür öhdəliklər və vəzifələr həmçinin geniş ictimaiyyətə açıqlanmalı və müvafiq xərclər şəffaf qaydada ödənilməlidir.***

Bəzi hallarda DMM-lərdən ictimai məqsədlər üçün xüsusi vəzifələrin və öhdəliklərin yerinə yetirilməsi gözlənilir. Bir sıra ölkələrdə buraya DMM-lərin məhsul və xidmətlərinin satış qiymətinin tənzimlənməsi daxil edilir. Bu cür xüsusi vəzifələr və öhdəliklər kommersiya fəaliyyəti üçün ümumi qəbul olunmuş normadan artıq ola bilərlər və qanun və qaydalarla açıq şəkildə tələb və izah olunmalıdırlar. Onların həmçinin şirkətin əsasnamələrinə daxil edilməsi daha yaxşı olardı.

Bazar iştirakçıları və geniş ictimaiyyət bu öhdəliklərin mahiyyəti və dərəcəsi, o cümlədən onların DMM-lərin resurslarına və iqtisadi fəaliyyətinin nəticələrinə ümumi təsiri barədə aydın şəkildə məlumatlandırılmalıdır.

Bundan əlavə, müvafiq məsrəflərin aydın müəyyən edilməsi, açıqlanması və qanunvericiliyin xüsusi müddəaları və/və ya müəssisənin idarə edilməsinə və ya xidmətlərin göstərilməsinə dair müqavilələr kimi müqavilə mexanizmləri əsasında dövlət büdcəsindən adekvat şəkildə ödənilməsi həmçinin vacibdir. Ödənişlər bazar münasibətlərinin pozulmaması şərti ilə aparılmalıdır. Bu xüsusilə iqtisadiyyatın rəqabətli sektorunda fəaliyyət göstərən müəssisələrə aiddir.

***D. Ümumi qanunların və qaydaların tətbiqində DMM-lər üçün istisnalar müəyyən edilməməlidir. Maraqlı tərəflər, o cümlədən rəqiblər, öz hüquqlarının pozulduğunu hesab etdikdə onları effektiv üsullarla bərpa etmək və qərəzsiz məhkəmə qərarının çıxarılmasına nail olmaq imkanına malik olmalıdırlar.***

Təcrübə göstərir ki, bəzi ölkələrdə bir çox qanun və qaydalar, o cümlədən anti-inhisar qanunvericiliyi DMM-lərə tətbiq edilmir. Adətən DMM-lərə iflas qanunvericiliyi şamil edilmir və kreditorlar bəzi hallarda öz müqavilələrini qüvvəyə mindirməkdə və ödənişləri almaqda çətinlik çəkirlər. Bazar münasibətlərinin pozulmaması və menecmentin cavabdehliyinin (məsuliyyətinin) azalmaması üçün qanunvericiliyin ümumi müddəalarından azad olma praktikası mümkün olaraq tam aradan götürülməlidir. DMM-lər, o cümlədən səhmdar qismində çıxış edən dövlət, qanunvericiliyin tələblərini pozduğu halda toxunulmazlıq hüququna malik olmamalı və məhkəmə və ya tənzimləyici orqanlar vasitəsilə məsuliyyətə cəlb olunmaqdan kənar qalmamalıdırlar. Maraqlı tərəflər məhkəmədə mülkiyyətçi kimi dövlətə qarşı iddialar irəli sürmək imkanına malik olmalı və belə olan təqdirdə məhkəmə sistemi tərəfindən onlara ədalətli və qərəzsiz yanaşılmalıdır.

***E. Hüquqi və tənzimləyici struktur DMM-lərə şirkətin məqsədlərinə nail olunması məqsədilə kapitalın strukturunda tələb olunan dəyişikliklərin edilməsi üçün kifayət qədər çevik olmağa imkan verməlidir.***

Kapitalın strukturunun qeyri-çevik olması bəzi vaxt DMM-lər üçün məqsədləri müəyyən etməyi

və onlara nail olmağı çətinləşdirir. Dövlət mülkiyyətçi olaraq DMM-lərin kapitalının strukturuna müvafiq dəyişikliklər etməyə imkan verən ümumi mexanizmlər yaratmalı və siyasət qəbul etməlidir.

Bu mexanizmlərə mülkiyyətçilərə DMM-lərin kapitalının strukturunu asanlıqla, lakin aydın həddlər çərçivəsində dəyişdirmək imkanın verilməsi daxil edilə bilər. Müəyyən həddlər çərçivəsində bu, məsələn, alınmış dividendlərin yenidən investisiya edilməsi və ya rəqabətli bazar şərtlərilə kapitalın artırılması vasitəsi ilə kapitalın bir dövlət müəssisəsindən digər dövlət müəssisəsinə birbaşa köçürülməsinə kömək edəcəkdir. Bu mexanizmlər Parlamentin büdcəyə və ya dövlət mülkiyyətçiliyinin müvafiq səviyyəsinə dair qərarlar qəbul etmək səlahiyyətini, o cümlədən büdcə sisteminin ümumi şəffaflığını qorumalıdır. DMM-lərin kapitalının strukturunda hər hansı bir dəyişiklik dövlət mülkiyyətçiliyinin məqsədlərinə və DMM-lərin xüsusi vəziyyətinə uyğun olmalıdır. Auditin aparılması və ya Parlament tərəfindən təhlilin edilməsi vasitəsilə effektiv cavabdehliyi təmin etmək üçün qərarlar adekvat şəkildə sənədləşdirilməlidir. Nəhayət, bu mexanizmlər kapitalın köçürülməsi vasitəsi ilə hər hansı bir müəssisənin digər müəssisəni maliyyələşdirməsi formalarının (çarpaz-subsidiya/cross-subsidization bir məhsulun istehsalında baş vermiş itkilərin digər məhsulun istehsalından əldə olunan yüksək gəlirlər hesabına ödənilməsi; daha geniş mənada – gəlirli fəaliyyətlər hesabına gəlirsiz fəaliyyət növlərinin maliyyələşdirilməsi. Tərcüməçinin qeydi) qarşısını almaq üçün məhdudlaşdırılmalı və ciddi nəzarət altında saxlanılmalıdırlar.

***F. DMM-lərin maliyyə resurslarına çıxışı rəqabətlilik prinsipi əsasında qurulmalıdır. Onların dövlət bankları, dövlət maliyyə institutları və digər dövlət şirkətləri ilə əlaqələri sırf komersiya əsaslarında qurulmalıdır.***

Kreditorlar və şuralar çox zaman güman edirlər ki, DMM-lərin borclarına dair dövlət şərtsiz zəmanət verir. Bu cür vəziyyət bir çox hallarda kreditorların və vergi ödəyicilərin zərərinə olan hədsiz borclara, israf edilmiş resurslara və pozulmuş bazar münasibətlərinə gətirib çıxarmışdır. Bundan əlavə, bəzi ölkələrdə dövlət bankları və digər maliyyə institutları DMM-lərin ən mühüm və hətda ən əsas kreditorları olmağa çalışırlar. Bu cür mühit mənafelər toqquşması üçün münbit şərait yaradır. Bu dövlət bankları tərəfindən verilmiş qeyri-qənaətbəxş kreditlərə gətirib çıxara bilər, çünki müəssisələr kreditləri qaytarmaq üçün heç bir öhdəlik daşımadıqlarını hesab edə bilərlər. Bu DMM-ləri bazar nəzarətinin və təzyiqinin mühüm mənbəyindən qoruyub, onların stimuluna mənfi təsir göstərə bilər.

Dövlətin və DMM-lərin kreditorlara dair müvafiq məsuliyyətləri aydın bölünməlidir. Dövlət çox vaxt DMM-ləri səhmdar kapitalı ilə təmin edə bilmədiyinə görə alternativ olaraq onlara zəmanətlər verir, lakin bu imkandan geniş sui-istifadə edilir. Ümumi qayda olaraq, dövlət DMM-lərin öhdəliklərinə dair avtomatik zəmanət verməməlidir. Həmçinin dövlət zəmanətlərinin açıqlanmasına və ödənilməsinə dair düzgün təcrübələr hazırlanmalı və DMM-lər kapital bazarlardan maliyyə vəsaitlərini cəlb etməyə təşviq edilməlidirlər.

Mənafelərin toqquşması hallarını idarə etmək üçün mexanizmlər hazırlanmalı və DMM-lərin dövlət bankları, digər maliyyə institutları, o cümlədən digər DMM-lər ilə münasibətlərinin kommersiya maraqları əsasında qurulması təmin edilməlidir. Dövlət bankları DMM-lərə kreditləri özəl şirkətlər üçün tətbiq edilən eyni şərtlərlə verməlidirlər. Bu mexanizmlərə dövlət banklarının şuralarında təmsil olunan DMM-lərin şura üzvlərinə dair məhdudiyyətlərin və ciddi təhlilin tədbiq edilməsi daxil edilə bilər.

### *İkinci hissənin şərhi:*

## II. MÜLKİYYƏTÇİ QİSMİNDƏ ÇIXIŞ EDƏN DÖVLƏT

***Dövlət məlumatlı və fəal mülkiyyətçi qismində çıxış etməli və DMM-lərin, tələb olunan peşəkarlıq və effektivlik səviyyəsi qorunmaqla, şəffaf və hesabatlı şəkildə idarə edilməsini təmin edən aydın və yekdil mülkiyyət siyasətini müəyyən etməlidir.***

Hökumət öz mülkiyyət funksiyasını daşımaq üçün özəl və dövlət sektorunun idarəetmə standartlarına, xüsusən həmçinin DMM-lərə şamil edilə bilən İƏİT-in Korporativ İdarəetmə Prinsiplərinə müraciət etməlidir. İƏİT-in Korporativ İdarəetmə Prinsiplərinə əlavə olaraq DMM-lərin idarə edilməsinin səciyyəvi aspektləri mövcuddur ki, onlar xüsusi diqqətə layiqdir və ya bu müəssisələrin şura üzvlərini, menecmentini və dövlətin mülkiyyət hüquqlarının həyata keçirilməsinə görə məsuliyyət daşıyan dövlət şirkətini öz müvafiq vəzifələrini effektiv şəkildə yerinə yetirməyə doğru istiqamətləndirmək üçün daha ətraflı sənədləşdirilməlidirlər.

***A. Hökumət dövlət mülkiyyətçiliyinin ümumi məqsədlərini, DMM-lərin korporativ idarəetməsində dövlətin rolunu və həmin siyasətin necə tətbiq ediləcəyini müəyyən edən mülkiyyət siyasətini hazırlamalı və dərc etməlidir.***

Məhz dövlət mülkiyyətçiliyinin çoxsaylı və bir-birinə zidd olan məqsədləri səbəbindən dövlət tərəfindən mülkiyyət funksiyaları ya çox passiv şəkildə həyata keçirilir, ya da əksinə, şirkət və onun idarəetmə orqanları tərəfindən həll edilməli olan məsələlərə və ya qərarlara dövlət hədsiz dərəcədə müdaxilə edir.

Dövlətə mülkiyyətçi kimi yerini tutmaq üçün öz məqsədlərini aydınlaşdırmaq və prioritetləşdirmək lazımdır. Gəlirlilik norması və dividend siyasəti kimi xüsusi hədəflər formasında ifadə olunmuş gəlirin əldə olunması və bazarın təhrif edilməsindən çəkinmə məqsədlərə daxil edilə bilərlər. Məqsədlərin müəyyən edilməsinə kompromislər daxil edilə bilər, məsələn səhmdarlar üçün müəssisənin dəyəri, ictimai xidmət və hətda məşğulluğun təmin olunması arasında kompromisin tapılması. Bu səbəbdən dövlət mülkiyyətçi kimi öz məqsədlərini müəyyən etməklə kifayətlənməməli, həmçinin prioritetləri müəyyən etməli və qaçılmaz kompromislərlə necə rəftar ediləcəyini aydınlaşdırmalıdır. Bunları etdikdə dövlət əməliyyat məsələlərinə müdaxilə etməkdən çəkinməli və beləliklə şuranın müstəqilliyini tanımalı və qorumalıdır. Aydın mülkiyyət siyasəti DMM-lərə öz məqsədlərinin və ya ictimai xidmətlərlə bağlı öhdəliklərinin xüsusiyyətlərinin və həddinin müəyyən edilməsində hədsiz müstəqilliyin verilməsi hallarının qarşısını almağa kömək edəcəkdir.

Bundan əlavə, dövlət öz mülkiyyət siyasətinə sadiq olmağa çalışmalı və ümumi məqsədləri tez-tez dəyişməkdən çəkinməlidir. Aydın, yekdil və dəqiq mülkiyyət siyasəti DMM-lərə, bazarlara və geniş ictimaiyyətə dövlətin mülkiyyətçi kimi məqsədlərinin, o cümlədən onun uzunmüddətli öhdəliklərinin aydın izahını verir və onlar barəsində qabaqcadan təsəvvürün yaranmasına imkan verir.

Dövlətin mülkiyyət siyasətinin hazırlanmasında və yeniləşdirilməsində, hökumətlər ictimai

rəydən müvafiq olaraq istifadə etməlidir. Mülkiyyət siyasəti və onunla bağlı şirkətin məqsədləri geniş ictimaiyyət tərəfindən əldə oluna bilən və müvafiq nazirliklər, agentliklər, DMM-lərin şuraları, menecment və qanunvericilik orqanları arasında geniş yayılan ictimai sənədlər olmalıdırlar.

Həmçinin müvafiq dövlət qulluqçuları tərəfindən mülkiyyət siyasətinin dəstəklənməsi və DMM-lərin səhmdarlarının ümumi yığıncağı, şurası və top-menecmenti tərəfindən korporativ məqsədlər bəyannaməsinin təsdiq olunması vacibdir.

***B. Hökumət DMM-lərin gündəlik idarə edilməsinə müdaxilə etməməli və onlara müəyyən edilmiş məqsədlərə nail olmaq üçün tam əməliyyat sərbəstliyini verməlidir.***

Dövlətin fəal və məlumatlı mülkiyyətçi kimi fəaliyyət göstərməsi üçün əsas vasitələrə aydın və yekdil mülkiyyət strategiyası, strukturlaşdırılmış "şuranı təyin etmə" prosesi və müəyyən edilmiş mülkiyyət hüquqlarının effektiv həyata keçirilməsi aiddir. DMM-lərin gündəlik fəaliyyətinə hər hansı bir müdaxiləyə yol verilməməlidir.

Sahiblik və ya koordinasiya edən təşkilatın dövlət müəssisəsinə və ya onun şurasına istiqamət vermək imkanı strateji məsələlərlə və siyasətlərlə məhdudlaşmalıdır. Sahiblik və ya koordinasiya edən təşkilatın hansı sahələrdə göstərişlər vermək və hansı növ qərarlar qəbul etmək üçün səriştəyə malik olduğu müəyyənləşdirilməli və ictimaiyyətə açıqlanmalıdır.

Həmin istiqamətdə, hər hansı digər dövlət orqanlarının DMM-lərin gündəlik fəaliyyətinə müdaxilə etmək imkanlarına ciddi məhdudiyyətlər qoyulmalıdır.

***C. Dövlət özünə məxsus müəssisələrin şuralarına öz vəzifələrini yerinə yetirmək imkanını verməli və onların müstəqilliyinə hörmətlə yanaşmalıdır.***

Şura uzlüyünə namizədləri təklif etdikdə və onları seçdikdə sahiblik edən təşkilat əsas diqqəti DMM-lərin şuralarının öz vəzifələrinin peşəkar və müstəqil şəkildə yerinə yetirilməsinə olan ehtiyacına verməlidir. İƏİT-in Prinsiplərində göstərildiyi kimi, fərdi şura üzvlərinin öz vəzifələrini yerinə yetirərkən müxtəlif seçicilər qruplarının təmsilçisi kimi hərəkət etməməsi vacibdir. Müstəqillik tələb edir ki, şura üzvlərinin hər biri bütün səhmdarlara eyni yanaşmanı təmin etməklə öz vəzifələrini yerinə yetirsinlər. Şirkətin nizamnaməsi və ya onun xüsusi məqsədləri ilə uyğun olduğu hallar istisna olmaqla, bu, şura üzvlərinin öz vəzifələrini yerinə yetirərkən heç bir siyasi maraqlara qulluq etməməsini nəzərdə tutur.

Dövlət nəzarət paketinin sahibi olduqda digər səhmdarların razılığı olmadan şuraya namizədləri təklif etmək və seçmək hüququna malikdir. Qanunvericiliklə verilmiş bu hüquq şuraya üzv olmaq üçün namizədlərin müəyyən edilməsi, onların təyin edilməsi və seçilməsi ilə bağlı dövlətin üzərinə böyük məsuliyyət qoyur. Bu prosesdə, mümkün olan mənafelərin toqquşması hallarını minimum səviyyəyə endirmək üçün, sahiblik edən şirkət şura üzvlərinin böyük əksəriyyətini hökumət nümayyəndələri arasından seçməkdən çəkinməlidir. Bu xüsusilə qismən dövlətə məxsus olan və yüksək rəqabətli sahələrdə fəaliyyət göstərən DMM-lərə aiddir. Bəzi ölkələr DMM-lərin şuralarına sahiblik edən təşkilatlardan və ya dövlətin digər vəzifəli şəxslərindən heç bir şəxsin təyin olunmamasına və ya seçilməməsinə qərar vermişdirlər. Bu, hökuməti DMM-lərin fəaliyyətinə və ya idarəedilməsinə müdaxilə etmək imkanından aşkar məhrum etmək və DMM-lərin şuraların qərarlarına görə dövlətin məsuliyyətini məhdudlaşdırmaq məqsədini daşıyır.

Sahiblik edən təşkilatın işçiləri, digər inzibati orqanlardan və ya dövlət qurumlarından peşəkarlar DMM-lərinin şuralarına yalnız bütün digər üzvlərdən tələb olunan şəriştəlik səviyyəsinə cavab verdikdə və qəbul olunmaz siyasi təsirin göstərilməsi üçün alət rolunu oynamayacaqları halda seçilməlidirlər. Onların digər şura üzvləri ilə eyni vəzifələri və məsuliyyətləri olmalı və dövlətə məxsus müəssisənin və onun bütün səhmdarlarının maraqlarına qulluq etməlidirlər. Vəzifədən kənar etmənin şərtləri və mənafelərin toqquşması halları diqqətlə təhlil edilməli və onların həll edilməsi üsulları təklif edilməlidir. Müvafiq peşəkarlarda mövcud və ya güman edilən hədsiz mənafelər toqquşması olmamalıdır. Xüsusilə bu deməkdir ki, onlar nə DMM-lərə dair tənzimləyici qərarların qəbul edilməsində iştirak etməli, nə də onları şirkətin maraqlarına qulluq etməkdən çəkindirən xüsusi öhdəliklərlə və ya qadağalarla məhdudlaşdırmamalıdırlar. Ümumi şəkildə, hər hansı şura üzvünə aid bütün potensial mənafelər toqquşmaları barədə şuraya hesabat verilməli və sonradan şura həmin mənafelər toqquşmalarını onların necə idarə olunacaqları barədə məlumatla birgə açıqlamalıdır.

Dövlət nümayyəndələri DMM-lərin şuralarında təmsil olunduqda müvafiq fərdi və dövlət məsuliyətlərinin aydınlaşdırılması xüsusilə əhəmiyyətlidir. Dövlət nümayyəndələrindən DMM-də olan hər hansı fərdi mülkiyyətçiliklərinin açıqlanması və müvafiq insayder sövdələşməsi qaydalarına riayət etmələri tələb oluna bilər. Koordinasiya və ya sahiblik edən təşkilat tərəfindən sahiblik edən təşkilatın üzvləri və DMM-lər şuralarında təmsil olunan digər dövlət nümayyəndələri üçün rəhbərliklər və ya etika məcəllələri hazırlana bilər. Bu rəhbərliklər və ya etika məcəllələri həmin şura üzvləri tərəfindən dövlətə məxfi məlumat ötürüldükdə hansı tədbirlərin görülməsi göstərilə bilər.

Göstərişlər, geniş siyasi məqsədlər baxımından, birbaşa şuranın verdikləri göstərişlər əvəzinə koordinasiya və ya sahiblik edən təşkilat vasitəsilə verilməli və müəssisənin məqsədləri kimi təqdim edilməlidir. DMM-lərin şuraları siyasətlə bağlı dəyişikliklərə Parlamentin icazəsi olmadan və ya xüsusi prosedurlar təsdiqlənmədən reaksiya verməməlidirlər.

***D. Dövlət idarəçiliyi çərçivəsində mülkiyyət hüquqlarından istifadə etmə aydın şəkildə müəyyən edilməlidir. Buna nail olmağa koordinasiya edən təşkilatın yaradılması və ya, daha münasib, mülkiyyətçi funksiyasının mərkəzləşdirilməsi kömək edə bilər.***

Dövlət idarəçiliyi çərçivəsində mülkiyyət funksiyasının maliyyə və ya iqtisadiyyat nazirlikləri kimi mərkəzi nazirliklərdə, və ya ayrıca inzibati qurumlarda, və ya xüsusi sahə üzrə nazirlikdə yerləşməsindən asılı olmayaraq aydın şəkildə müəyyən edilməsi vacibdir.

Mülkiyyətçi funksiyasının aydın şəkildə müəyyən edilməsinə nail olmaq üçün, bu funksiya müstəqil və ya bir nazirliyə tabe olan ayrıca bir təşkilatda mərkəzləşdirilə bilər. Bu cür yanaşma mülkiyyət siyasətinin və onun istiqamətinin aydınlaşdırılmasında kömək edəcək və həmçinin onun daha ardıcıl tətbiq edilməsini təmin edəcəkdir. Mülkiyyətçi funksiyasının mərkəzləşdirilməsi həmçinin maliyyə hesabatlığı və ya şuranın təyin edilməsi kimi əsas məsələlərə dair ekspertlər “qrupunu” təşkil etməklə müvafiq bacarıqların gücləndirilməsinə və bir yerə toplanmasına imkan yarada bilər. Bu baxımdan, mərkəzləşdirmə dövlət mülkiyyətçiliyinə dair məcmu hesabatlığın yaradılmasında əsas rol oynaya bilər. Nəhayət, mərkəzləşdirmə mülkiyyətçi funksiyasının dövlətin həyata keçirdiyi digər fəaliyyətlərindən, o cümlədən yuxarıda I.A bəndində göstərilmiş bazarın

tənzimlənməsi və səha siyasətinin müəyyənləşdirilməsi funksiyalarından aydın şəkildə ayrılması üçün effektiv bir vasitədir.

Mülkiyyətçi funksiyasınn mərkəzləşdirilmədikdə, minimum tələb müvafiq inzibati departamentlərin arasında güclü koordinasiya edən təşkilatın yaradılmasıdır. Bu hər bir DMM-yə aydın göstərişlərin və strateji rəhbərlik və ya hesabatlıq tələbləri baxımından dəqiq tapşırıqların verilməsini təmin etməyə kömək edəcəkdir. Koordinasiya edən təşkilat müxtəlif nazirliklərdə mülkiyyət məsələri ilə məşğul olan departamentlərinin həyata keçirdiyi fəaliyyətləri və siyasətləri uzlaşdıracaq və koordinasiya edəcəkdir. Koordinasiya edən təşkilat həmçinin ümumi mülkiyyət siyasətinin müəyyən edilməsi, strateji rəhbərliyin hazılanması və müxtəlif nazirliklər arasında təcrübələrin birləşdirilməsi ilə məşğul olmalıdır.

Mülkiyyətçi funksiyasının ayrıca bir təşkilatda mərkəzləşdirilməsi daha çox rəqabətli sektorda fəaliyyət göstərən DMM-lər üçün vacibdir və, əsasən ictimai məqsədlərə qulluq edən DMM-lər üçün mütləq deyil. Belə DMM-lər bu Rəhbərliyin əsas istifadəçiləri deyil, onlar üçün sahə üzrə nazirliklər siyasi məqsədlərdən az seçilə biləcək mülkiyyət hüquqlarından istifadə etmək üçün ən münasib və səriştəli təşkilatlar olaraq qala bilərlər.

Mülkiyyətçi funksiyasının mərkəzləşdirilməsi nəzərdə tutulubsa, bu yeni və hədsiz dərəcədə güclü bürokratik təbəqənin yaradılması ilə nəticələnməməlidir.

Mülkiyyətçi funksiyası ayrıca bir təşkilat tərəfindən həyata keçirilə bilmədikdə, hər halda bəzi əsas funksiyalar xüsusi bacarıqlardan istifadə etmək üçün və müəyyən sahə nazirliyindən müstəqilliyi təmin etmək məqsədilə mərkəzləşdirilməlidir. Belə hissəvi mərkəzləşdirmənin nə cür faydalı ola biləcəyinə dair bir nümumə şura üzvlərinin təyin edilməsidir.

Mülkiyyətçi funksiyasının aydın şəkildə müəyyən edilməsi mülkiyyətin (müəssisənin) harada, məsələn milli, regional, federal və ya sub-federal səviyyəsində yerləşməsindən asılı olaraq müxtəlif hökumət səviyyəsində aparılmalıdır. Bu Qaydalar dövlət və ya federasiya çərçivəsində DMM-lərin bu baxımdan idarə edilməsinin lazımi səviyyəsini müəyyən etmək üçün istiqamət vermir. Hazırkı sənəd sadəcə göstərir ki, səlahiyyətlərin səviyyəsindən asılı olmayaraq, mülkiyyət funksiyasının ayrıca bir təşkilatda mərkəzləşməsi və ya bu təşlilat tərəfindən koordinasiya edilməsi daha məqsədəuyğun olardı. Bundan əlavə, mülkiyyətçiliyin müxtəlif inzibati səviyyələri olduqda, mülkiyyət təcrübələrinin uzlaşdırılması yolları axtarılmalıdır. Nəhayət, mülkiyyət funksiyasının mərkəzləşdirilməsi hüquqi mülkiyyətçiliyin mərkəzləşdirilməsi demək deyil.

**E. Koordinasiya və ya sahiblik edən təşkilat Parlament kimi nümayyəndələr (təmsilçi) orqanlarına hesabat verməli və dövlət ali audit institutları daxil olmaqla, müvafiq dövlət orqanları ilə aydın şəkildə müəyyən edilmiş əlaqələr qurmalıdır.**

Koordinasiya və ya sahiblik edən təşkilatın digər dövlət orqanları ilə əlaqələri aydın müəyyən edilməlidir. Bir sıra dövlət orqanlarının, nazirliklərin və ya inzibati qurumların eyni DMM-lərə dair müxtəlif rolları vardır. İctimaiyyətin DMM-lərin mülkiyyətinin dövlət tərəfindən necə idarə edilməsinə dair etibarını artırmaq üçün, bu müxtəlif rolların aydınlaşdırılması və geniş ictimaiyyətə izah edilməsi vacibdir.

Xüsusilə, sahiblik edən təşkilat DMM-lərin auditinin aparılmasına görə cavabdeh olan ali

dövlət audit institutları ilə əməkdaşlıq etməli və daimi dialoq aparmalıdır. Sahiblik edən təşkilat dövlət audit institutlarının işini dəstəkləməli və audit zamanı aşkar olunmuş faktlar barəsində Beynəlxalq Ali Audit İnstitutlarının Audit Prinsiplərinə dair Rəhbərliklərinin Lima Bəyannaməsinə uyğun olaraq müvafiq tədbirlər görməlidir.

Koordinasiya və ya sahiblik edən təşkilat həmçinin dövlət mülkiyyətçiliyin necə idarə edilməsi barədə aydın şəkildə hesabat verməlidir. O, Parlament kimi geniş ictimaiyyətin maraqlarını təmsil edən orqanlar qarşısında birbaşa və ya dolayısıla hesabat verməlidir. Bu təşkilatın qanuvericilik orqanlarına hesabat verməsi aydın müəyyən edilməlidir; eyni zamanda DMM-lərin öz hesabatlığı aydın müəyyən edilməlidir və koordinasiya və ya sahiblik edən təşkilatın və DMM-lərin arasında hesabatlıq münasibətlərinin olması səbəbindən zəifləməməlidir.

Bu hesabatlıq mülkiyyət hüquqlarından istifadə etdikdə qanunvericilik orqanlarının müstəsna hüququ olan büdcə siyasətinə müdaxilə olunmasını təmin etməklə məhdudlaşmamalıdır. Sahiblik edən təşkilat dövlət mülkiyyətcçliyini həyata keçirməkdə və dövlət məqsədlərinə nail olmaqda öz fəaliyyətinin nəticələri barədə hesabat verməlidir. O, DMM-lərin öz sahiblərinin maraqlarına uyğun olaraq necə idarə edilməsinə dair ictimaiyyəti və ictimaiyyət nümayəndələrini kəmiyyətli və etibarlı məlumatla təmin etməlidir. Koordinasiya və ya sahiblik edən təşkilatla qanunvericilik orqanları arasında dialoq yaratmaq üçün müvəqqəti və ya daimi komissiyalar kimi xüsusi mexanizmlər yaradıla bilər. Parlament dinləmələri zamanı məxfilik məsələləri məxfi və ya bağlı iclasların keçirilməsi kimi xüsusi prosedurlarla müşahidə olunmalıdır. Ümumi olaraq faydalı prosedur kimi qəbul olunsa da, bu dialoqun forması, keçirilməsi tezliyi və məzmunu konstitusiya hüququndan və müxtəlif parlament ənənələrindən və rollarından asılı olaraq fərqlənə bilər.

Hesabatlıq tələbləri koordinasiya və ya sahiblik edən təşkilatın öz vəzifələrini yerinə yetirməkdə müstəqilliyini hədsiz məhdudlaşdırmamalıdır. Məsələn koordinasiya və ya sahiblik edən təşkilatın qanuvericilik orqanlarının əvvəlcədən icazəsini almalı olacaq hallar məhdudlaşdırılmalı və ümumi mülkiyyət siyasətində mühüm dəyişiklikləri, dövlət sektorunun miqyasında dəyişiklikləri və mühüm əqdləri (investisiyaların edilməsini və ya geri götürülməsini) daxil etməlidir.

Ümumiyyətlə, sahiblik edən təşkilat öz işlərinin təşkilində və prosedurlara və proseslərə dair qərar qəbul etdikdə cavabdeh olduğu nazirlik qarşısında müəyyən dərəcədə çevikliyə malik olmalıdır. Sahiblik edən təşkilat həmçinin özəl sektordan peşəkarları dəvət etməyə, mükafatlandırmağa və saxlamağa imkan verən müəyyən dərəcədə büdcə müstəqilliyinə də malik olmalıdır.

***F. Dövlət fəal mülkiyyətçi olaraq hər bir şirkətin hüquqi strukturuna uyğun olaraq öz mülkiyyət hüquqlarından istifadə etməlidir.***

Yersiz siyasi müdaxilənin və ya passiv dövlət mülkiyyətçiliyinin qarşısını almaq üçün, koordinasiya və ya sahiblik edən təşkilat tərəfindən mülkiyyət hüquqlarının effektiv istifadə edilməsinə diqqətin yetirilməsi vacibdir. Dövlət mülkiyyətçi olaraq şirkətə mühüm təsir göstərə biləcək vəziyyətdə olduqda, iri səhmdar(lar) kimi hərəkət etməli və ya minoritar vəziyyətdə olduqda, məlumatlı və fəal səhmdar olmalıdır. Dövlətə, öz mülkiyyətini qorumaq və dəyərini artırmaq üçün öz hüquqlarından istifadə etməsi tövsiyyə edilir.

İƏİT-in korporativ idarəetmə prinsiplərinə əsasən səhmdarların aşağıdaki dörd əsas hüquqları vardır: 1) səhmdarların ümumi yığıncağında iştirak etmək və səs vermək; 2) şirkət haqqında mühüm və aidiyyəti məlumatı vaxtında və müntəzəm surətdə almaq; 3) müşahidə şurasının üzvlərini seçmək və kənarlaşdırmaq; və 4) qeyri-adi əqdləri təsdiq etmək. Koordinasiya və ya sahiblik edən təşkilat bu hüquqlardan tam və ehtiyatla istifadə etməlidir, çünki bu hüquqlar gündəlik idarəetməyə müdaxilə etmədən dövlət müəssisəsinə lazım olan təsiredici qüvvəyə malik olmağa imkan verir. Dövlət müəssisəsinin idarəedilməsinin və ona nəzarətin effektivliyi və etibarlığı əsasən sahiblik edən təşkilatın öz səhmdar hüquqlarından məlumatlı qaydada istifadə etmək və dövlət müəssisəsində öz mülkiyyət funksiyasını səmərəli həyata keçirmək bacarığından asılıdır.

Sahiblik edən təşkilata xüsusi bacarıqlar və fidusiar vəzifələrini yerinə yetirmək təcrübəsinə malik olan hüquq, maliyyə, iqtisadiyyat və idarəetmə sahələrində peşəkarlar lazımdır. Bu peşəkarlar həmçinin dövlət qulluqçuları kimi DMM-lərə dair öz rollarını və vəzifələrini aydın şəkildə anlamalıdırlar. Əlavə olaraq, sahiblik edən təşkilat onun nəzarəti altında bəzi DMM-lərin ictimai xidmətlərin göstərilməsi çərçivəsində yerinə yetirməli olduqları xüsusi öhəliklərlə bağlı bacarıqları da daxil etməlidir. Koordinasiya və ya sahiblik edən təşkilat həmçinin dövlətin mülkiyyət hüquqlarından daha effektiv istifadə etmək üçün, kənar məsləhətlər əldə etmək və mülkiyyətçi funksiyasının bəzi aspektlərini müqavilə əsasında üçüncü tərəfə həvalə etmək imkanına malik olmalıdır. Məsələn, həmin təşkilat tələb olunan hallarda və müvafiq qaydada onun adından qiymətləndirmə işlərini aparmaq, monitorinq etmək və ya etibarnamə ilə səs vermək üçün kənar mütəxəssislərdən istifadə edə bilərlər.

**Onun əsas vəzifələrinə aşağıdakılar daxildir:**

**1. Səhmdarların Ümumi Yığıncağında təmsil olunmaq və dövlətə məxsus olan səhmlərlə səs vermək.**

Dövlət mülkiyyətçi olaraq səsvermə hüquqlarından istifadə etdikdə öz fidusiar vəzifələrini yerinə yetirməlidir, və ya onlardan istifadə etmədikdə bunun səbəbini izah etməlidir. Dövlət DMM-nin səhmdarların ümumi yığıncağı qarşısında qoyulmuş təklifləri həll etməyə çalışmayan səhmdar olmamalıdır.

Dövlətin təsdiq üçün ümumi yığıncağa təqdim olunmuş məsələlərə dair öz fikirini ifadə edə bilməsi üçün, koordinasiya və ya sahiblik edən təşkilat öz işini elə tərzdə qurmalıdır ki, həmin məsələlərə dair məlumatlı fikir söyləmək və onu səhmdarların ümumi yığıncağı vasitəsilə DMM-lərin şuralarına çatdırmaq imkanı olsun.

Dövlətin səhmdarların ümumi yığıncağında təmsil olunması üçün müvafiq prosedurların müəyyən edilməsi vacibdir. Buna, misal üçün koordinasiya və ya sahiblik edən təşkilatının dövlət payının təmsilçisi kimi aydın müəyyən edilməsi vasitəsilə nail olmaq olar.

**2. Bütünlüklə və ya əsas hissəsi dövlətə məxsus olan müəssisələrdə şura üzvlərinin namizədliklərinin düzgün və şəffaf qaydada irəli sürülməsi proseslərini qurmaq və bütün DMM-lərin şuralarının təyin edilməsində fəal iştirak etmək.**

Koordinasiya və ya sahiblik edən təşkilat DMM-lərdə öz vəzifələrini yerinə yetirmək üçün tələb

olunan bacarıqların toplusuna malik olan effektiv və düzgün fəaliyyət göstərən peşəkar şuraların olmasını təmin etməlidir. Buraya strukturlaşdırılmış təyin etmə prosesinin yaradılması və bu prosesdə fəal iştirak etmə daxildir. Sahiblik edən təşkilata təyin etmə prosesində dövlət iştirakının təşkil edilməsi üçün tam səlahiyyət verilərsə bu iş daha da asanlaşa bilər.

DMM-lərin şuralarının təyin edilməsi şəffaf, aydın şəkildə strukturlaşdırılmış və müxtəlif, tələb olunan bacarıqların, biliklərin və təcrübələrin qiymətləndirilməsinə əsaslanmalıdır. Bacarıq və təcrübəyə dair tələblər cari şuranın qiymətləndirilməsinə və şirkətin uzunmüddətli strategiyasına uyğun olan tələblərə əsaslanmalıdır. Bu qiymətləndirmələrdə qanunvericiliklə və ya ikitərəfli sazişlərlə tələb olunduqda işçilərin şurada təmsil olunmasının rolu həmçinin nəzərə alınmalıdır. Təyin etmə prosesinin bu cür aydın tələblərə və qiymətləndirmələrə əsaslanması çox güman ki, peşəkar, məsuliyyətli və biznes yönümlü şuraların yaradılmasına gətirib çıxaracaqdır.

Dövlət yeganə mülkiyyətçi olmadığı təqdirdə, koordinasiya və ya sahiblik edən təşkilat səhmdarların ümumi yığıncağından əvvəl digər səhmdarlarla məsləhətləşməlidir. DMM-lərin şuraları həmçinin şura üzvlərinin təsdiq olunmuş iş təcrübələrinə, bacarıq tələblərinə və qiymətləndirilməsinə əsaslanaraq sahiblik edən təşkilata tövsiyyələr vermək imkanına malik olmalıdırlar. Təyin etmə komitələrinin yaradılması yaxşı namizədlərin axtarışına diqqətin yönəldilməsinə kömək etməkdə və təyin etmə prosesinin strukturlaşdırılmasında faydalı ola bilər. Bəzi ölkələrdə DMM-lər şuralarına üzvlərin təyin edilməsi prosesinə nəzarət etmək üçün xüsusi komissiyaların və ya "ictimai şuraların" yaradılması qabaqcıl təcrübə hesab edilir. Bu cür komissiyalar və ya ictimai şuralar yalnız tövsiyyə vermək səlahiyyətinə malik olsalar da, onlar təcrübədə DMM-lərin şuralarının müstəqilliyinin və peşəkarlığının artırılmasında mühüm təsiredici qüvvəyə malik ola bilərlər. Təkliflər namizədlərin peşəkar fəaliyyəti və təcrübələri barədə müvafiq məlumatla birgə səhmdarların ümumi yığıncağından əvvəl dərc edilməlidir.

Sahiblik edən təşkilat tərəfindən səriştəli namizədlər barədə açıq rəqabət əsasında hazırlanmış məlumat bazasının təşkil edilməsi faydalı ola bilər. Peşəkar işə düzəltmə agentliklərin cəlb edilməsi və beynəlxalq elanların verilməsi axtarış prosesinin keyfiyyətinin artırılmasına həmçinin kömək edə bilər. Bu DMM-lərin şuraları üçün səriştəli, xüsusən də özəl sektorun təcrübələri və beynəlxalq təcrübələr barədə bilikləri olan namizədlər dairəsinin genişləndirilməsinə kömək edə bilər. Bu proses həmçinin şuranın çoxşaxəliyini, o cümlədən gender balansını təşviq edəcəkdir.

**3. DMM-lərin fəaliyyətinin müntəzəm monitorinqinə və qiymətləndirilməsinə imkan verən hesabatlıq sisteminin yaradılması.**

Koordinasiya və ya sahiblik edən təşkilatın əsas korporativ məsələlərə dair məlumatlı qərarlar verməsi üçün, onlar bütün tələb olunan və müvafiq məlumatın vaxtında alınmasını təmin etməlidirlər. Onlar həmçinin DMM-lərin fəaliyyətinin və fəaliyyəti nəticələrinin müntəzəm monitornqinə imkan verən vasitələr yaratmalıdırlar.

Koordinasiya və ya sahiblik edən təşkilat bütün DMM-lərdə adekvat kənar hesabatlıq sistemlərinin olmasını təmin etməlidir. Hesabatlıq sistemləri koordinasiya və ya sahiblik edən təşkilat üçün dövlət müəssisəsinin fəaliyyəti və maliyyə durumu barədə düzgün təsəvvürün yaradılmasına kömək edir və bununla da koordinasiya və ya sahiblik edən təşkilata vaxtında reak-

siya etməyə və hansı sahələrə müdaxilə etməyi seçməyə imkan verir.

Koordinasiya və ya sahiblik edən təşkilat müəyyən edilmiş məqsədlərə nisbətdə DMM-lərin fəaliyyətini nəticələrinin monitorinqini apamaq üçün müvafiq vasitələr hazırlamalı və lazımi qiymətləndirmə üsullarını seçməlidir. Bu baxımdan DMM-lərin fəaliyyət nəticələrinin həm yerli həm də xarici özəl və dövlət sektorda fəaliyyət göstərən şirkətlərin nəticələri ilə sistematik müqayisəsinin aparılması prosesinin yaradılması buna kömək edə bilər. Bu müqayisəyə işçi qüvvəsinin, aktivlərin və kapitalın məhsuldarlığı və istifadə edilməsinin effektivliyi daxil edilməlidir. Bu müqayisə xüsusilə rəqabət olmayan sahələrdə fəaliyyət göstərən DMM-lər üçün əhəmiyyətlidir. Bu DMM-lərə, koordinasiya və ya sahiblik edən təşkilata və geniş ictimaiyyətə dövlət müəssisəsinin fəaliyyətini daha yaxşı qiymətləndirməyə və onların inkişafı barədə düşünməyə imkan verəcəkdir.

Eyni zamanda DMM-lərin maliyyə xidmətləri, kənar auditorlar və xüsusi dövlət nəzarətçiləri kimi müvafiq tərəflərlə lazımi məlumat mübadiləsini təmin etmək üçün koordinasiya və ya sahiblik edən təşkilatda adekvat mühasibat uçotu və audit bacarıqlarının olması dövlət müəssisəsi fəaliyyətinin effektiv monitorinqinə kömək edə bilər.

**4. Hüquqi sistem və dövlətin mülkiyyətçilik səviyyəsi imkan verdikdə, kənar auditorlarla və xüsusi dövlət nəzarəti orqanları ilə daimi dialoqun aparılması.**

Qanunvericilikdən asılı olaraq, koordinasiya və ya sahiblik edən təşkilat kənar auditorların namizədliklərini irəli sürmək və hətda onları təyin etmək hüququna malik ola bilər. Bütünlüklə DMM-lərə gəldikdə isə, koordinasiya və ya sahiblik edən təşkilat kənar auditorlarla, o cümlədən, mövcud olduğu halda, xüsusi dövlət nəzarətçiləri ilə daimi dialoq aparmalıdır. Bu dialoq müntəzəm məlumat mübadiləsi, iclaslar və ya xüsusi problemlər yarandıqda *ad hoc*[3] müzakirələr formasını almalıdır. Kənar auditorlar koordinasiya və ya sahiblik edən təşkilata dövlət müəssisəsinin fəaliyyətini və maliyyə durumu barədə kənar, müstəqil və peşəkar fikir bildirirlər. Lakin sahiblik edən təşkilatın kənar auditorlarla və dövlət nəzarətçiləri ilə daimi dialoqu şuranın məsuliyyətinin azaldılması hesabına aparılmamalıdır.

Səhmləri qiymətli kağızlar bazarlarında alınıb-satılan və ya qismən dövlətə məxsus olan müəssisələrə gəldikdə, koordinasiya və ya sahiblik edən təşkilat minoritar səhmdarların hüquqlarını qorumalı və onlara ədalətli yanaşmanı təmin etməlidir. Kənar auditorlarla dialoq, koordinasiya və ya sahiblik edən təşkilata hər hansı məxfi məlumatı əldə etməyə imkan verməməli və məxfi məlumata dair qaydalara riayət etməlidir.

**5. DMM-lərin şura üzvlərinin mükafatlandırılması sisteminin şirkətin uzun-müddətli maraqlarına qulluq etməsini və peşəkar mütəxəssisləri cəlb etməyə və motivasiya etməyə qadir olduğunu təmin etmək.**

DMM-lərin şura üzvlərinin muzdlarını özəl sektorda olan məvaciblərə yaxınlaşdırmaq tendensiyası güclüdür. Lakin, İƏİT-in üzv ölkələrinin əksəriyyətində bu muzdlar hələ də tələb olunan bacarıqlar və təcrübələr, o cümlədən daşınan məsuliyyət müqabilində bazar səviyyəsindən çox aşağıdır.

[3] “Bunun üçün” (latın dili), yəni xüsusi məqsəd üçün yaradılmış

*Üçüncü hissənin şərhi:*

## III. SƏHMDARLARA EYNİ YANAŞMA

***Dövlət və DMM-lər bütün səhmdarların hüquqlarını tanımalı və İƏİT-in Korporativ İdarəetmə Prinsiplərinə uyğun olaraq onlara eyni yanaşmanı təmin etməli və korporativ məlumatı əldə etmək imkanını verməlidirlər.***

Dövlətin payı olan bütün müəssisələrdə minoritar səhmdarlara eyni yanaşmanın təmin edilməsi dövlətin öz marağındadır, çünki dövlətin bu cür reputasiyası onun kənardan maliyyə vəsaitlərini cəlb etmək imkanlarına və şirkətin dəyərinə təsir edəcəkdir. Bu səbəbdən dövlət, digər səhmdarlar tərəfindən onun qeyri-şəffaf, proqnozlaşdırıla bilməyən və ədalətsiz bir mülkiyyətçi kimi qəbul edilməməsini təmin etməlidir. Əksinə, dövlət özünü nümunəvi mülkiyyətçi kimi göstərməli və minoritar səhmdarlara yanaşma baxımından qabaqcıl təcrübələrə riayət etməlidir.

***A. Dövlətin koordinasiya və ya sahiblik edən təşkilatı və DMM-lər bütün səhmdarlara eyni yanaşmanı təmin etməlidirlər.***

Dövlət müəssisəsinin kapitalının bir hissəsi özəl, institusional və ya fərdi, səhmdarlara məxsus olduqda, dövlət onların hüquqlarını tanımalıdır. Minoritar səhmdarların hüquqlarına gəldikdə İƏİT-in Korporativ İdarəetmə Prinsplərinə müraciət etmək koordinasiya və ya sahiblik edən təşkilatın və DMM-lərin öz marağındadır. Prinsiplərə əsasən "Azlıq təşkil edən səhmdarlar nəzarət paketinə sahib olan səhmdarlar tərəfindən və ya onların maraqları naminə edilən birbaşa və ya dolayı yolla sui-istifadədən müdafiə olunmalı və hüquqları pozulduğu halda onları effektiv metodlarla bərpa etmək imkanına malik olmalıdırlar." Prinsiplər həmçinin insayder əməliyyatları və şəxsi maraqlar üçün əməliyyatları qadağan edir. Nəhayət, İƏİT Prinsiplərinin şərhində minoritar səhmdarların hüquqlarını qorumaq üçün səhmləri almaqda üstünlük hüququndan və müəyyən qərarları qəbul etmək üçün səhmdarların 2/3 və ya daha artıq səs çoxluğundan ex-ante vasitələr kimi istifadə edilməsi təklif olunur.

Əsas səhmdar olaraq, dövlət bir çox hallarda hər hansı digər səhmdarın razılığını almadan səhmdarların ümumi yığıncağında qərarlar qəbul etmək imkanındadır. O, çox zaman direktorlar şurasının tərkibi barədə qərar vermək imkanına malikdir. Bu cür qərar-qəbulu səlahiyyətinin mülkiyyət hüququndan irəli gələn qanuni hüquq olmasına baxmayaraq, dövlətin özünün əsas səhmdar olması rolundan sui-istifadə etməməsi, məsələn şirkətin marağında olmayan və beləliklə digər səhmdarların zərərinə olan məqsədlərə qulluq etməməsi vacibdir. Sui-istifadə halları düzgün aparılmayan əlaqədar şəxslərlə əməliyyatlar, qərəzli biznes qərarları və nəzarət paketinə malik olan səhmdarların xeyrinə olan kapital strukturunda dəyişikliklər nəticəsində irəli gələ bilər. Görülə biləcək tədbirlərə daha yaxşı açıqlama, şura üzvlərinin sadiq olmaq vəzifəsi, o cümlədən müəyyən qərarların qəbulu üçün 2/3 və ya daha artıq səs çoxluğu daxil edilə bilər.

Koordinasiya və ya sahiblik edən təşkilat minoritar səhmdarlara eyni yanaşmaya dair rəhbərlik hazırlamalıdır. Onlar fərdi DMM-lərin, xüsusilə onların şuralarının minoritar səhmdarlarla münasibətlərinin vacibliyi barədə tam xəbərdar olduqlarını və bu münasibətləri təşviq etməkdə

fəal olmalarını təmin etməlidir.

İƏİT-in Korporativ İdarəetmə Prinsplərində qeyd olunduğu kimi, "nəzarət paketinə sahib olan səhmdarlara mülkiyyətçiliyi nəzarətdən ayırmaq üçün hüquqi vasitələrlə üzərilərinə götürdükləri riskə uyğun olmayan nəzarəti həyata keçirməyə imkan verən və bazarda qəbul olunan hüquqi sistem bu cür pozuntuların yaranması potensialını artırır." Beləliklə, hökumətlər, mümkün olduğu qədər "Qızıl Səhmlər"in istifadəsini məhdudlaşdırmalı və səhmdarın şirkətdə olan mülkiyyət payına mütənasib olmayan şəkildə şirkətə nəzarət etməyə imkan verən səhmdarlar arasında sazişləri və kapital strukturlarını açıqlamalıdırlar.

***B. DMM-lər bütün səhmdarlara münasibətdə yüksək dərəcədə şəffaflığa riayət etməlidir.***

Minoritar və digər səhmdarları qorumaq üçün ən əsas şərt şəffaflığın yüksək dərəcədə olmasını təmin etməkdir. İƏİT-in Korporativ İdarəetmə Prinspləri "səhmdarlara eyni yanaşmanı təmin etmək üçün onların hamısına məlumatı eyni zamanda təqdim edilməsini dəstəkləyir. İnvestorlarla və bazar iştirakçıları ilə yaxın münasibətləri qoruyub-saxlayan zaman, şirkətlər fundamental olan eyni yanaşma prinsipinin pozulmamasına dair diqqətli olmalıdırlar."

Minoritar və digər səhmdarlar investisiyalar barədə məlumatlı qərarlar qəbul etmək üçün bütün tələb olunan məlumatı əldə etmək imkanına malik olmalıdırlar. Eyni zamanda, mühüm səhmdarlar, o cümlədən koordinasiya və ya sahiblik edən təşkilat, nəzarət paketinə malik olan səhmdarlar və ya şura üzvləri əldə edə biləcəyi məlumatdan sui-istifadə etməməlidirlər. Listinqdən keçməmiş DMM-lərdə digər səhmdarların kimliyi adətən müəyyən edilmir və onlar çox vaxt, misal üçün şura üzvlüyü vasitəsilə, məlumata imtiyazlı çıxış əldə edirlər. Lakin, məlumatın açıqlanmasına dair hüquqi və tənzimləyici strukturun keyfiyyətindən və bütövlüyündən asılı olaraq, koordinasiya və ya sahiblik edən təşkilat dövlətin payı olan bütün müəssisələrdə bütün səhmdarlar tərəfindən məlumata asan və bərabər çıxışın əldə olunmasına zəmanət verən mexanizmlərin və prosedurların mövcud olmasını təmin etməlidir.

Səhmdarlar arasında bütün sazişlər, o cümlədən şura üzvlərinə aid olan məlumat sazişləri açıqlanmalıdır.

***C. DMM-lər bütün səhmdarlarla əlaqələrin yaradılması və məsləhətləşmələrin aparılması siyasətini müəyyən etməlidir.***

DMM-lər, o cümlədən dövlətin minoritar səhmdar olduğu hər hansı bir müəssisə, öz səhmdarlarının kimliyini müəyyən etməli və onları əhəmiyyətli hadisələr və səhmdarların ümumi yığıncağı haqqında vaxtlı və sistematik məlumatla lazımi qaydada təmin etməlidir. Müəssisələr həmçinin öz səhmdarlarına ümumi yığıncaqda barəsində qərar qəbul ediləcək məsələlər haqqında kifayət qədər məlumat verməlidir. Şirkətin səhmdarlara məlumatın verilməsinə dair öz öhdəliklərini yerinə yetirməsini təmin etmək DMM-lərin şuralarının məsuliyyətinə aiddir. Bunu etdikdə DMM-lər yalnız qüvvədə olan hüquqi və tənzimləyici strukturdan istifadə etməklə məhdudlaşmamalı, və inam və etibarın qazanılması məqsədilə lazım olan hallarda bu strukturlardan kənara çıxmalıdır. Mümkün olduqda, minoritar səhmdarlarla məsləhətləşmələr qərarların qəbul edilməsi prosesinin və əhəmiyyətli qərarların qəbl edilməsini təkmilləşdirilməsinə kömək edə bilər.

***D. Minoritar səhmdarların ümumi yığıncaqda iştirak etməsi asanlaşdırılmalıdır ki, onlar*** şuranın

***seçilməsi kimi əsas korporativ qərarların qəbulunda iştirak edə bilsinlər.***

Minoritar səhmdarlar şirkətin şəhmdarlarının ümumi yığıncaqlarından və ya şura iclaslarından kənar qəbul edilmiş qeyri-rəsmi qərarlar barədə narahat ola bilərlər. Mühüm və ya nəzarət paketinə malik səhmdarı olan listinqdən keçmiş şirkətlər üçün bu narahatçılıq əsaslıdır, lakin həmin narahatçılıqlar dövlətin əsas səhmdar olduğu şirkətlərdə də yarana bilər. Mülkiyyətçi olaraq dövlətin minoritar səhmdarlarda onların hüquqlarının qorunacağına əmin yaratması məqsədəuyğun ola bilərdi.

İƏİT-in Korporativ İdarəetmə Prinsiplərində qeyd olunduğu kimi, səhmdarlarin ümumi yığıncağında iştirak etmək səhmdarların əsas hüquqlarındandır. Minoritar səhmdarların ümumi yığıncaqlarda fəal iştirak etməsini təşviq etmək və öz hüquqlarından istifadə etməsinə kömək etmək məqsədilə DMM-lər İƏİT Prinsiplərində listinqdən keçmiş şirkətlər üçün tövsiyyə edildiyi kimi xüsusi mexanizmlərdən istifadə edə bilər. Buraya səhmdarlar tərəfindən müəyyən qərarların qəbulu üçün 2/3 və ya daha artıq səs çoxluğundan istifadə etmə, və vəziyyətdən asılı olaraq müvafiq hesab edildikdə, kumulyativ səsvermə kimi xüsusi seçki qaydalarından istifadə etmək imkanı daxil edilə bilər. Əlavə measures yiğincaqda iştirak etmədən səsvermə və ya istirak xərclərini azaltmaq üçün elektron vasitələrdən istifadə etməni daxil etməlidir. Bundan əlavə, işçi-səhmdarların ümumi yığıncaqda iştirak etməsinə, məsələn, işçi-səhmdarlardan etibarnamə əsasında verilən səslərin toplanması kömək edə bilər.

Minoritar səhmdarların qoruması üçün nəzərdə tutulmuş hər hansı mexanizmin tarazlaşdırılması da vacibdir. Bu mexanizmlər bütün minoritar səhmdarlara aid edilməli və heç bir halda eyni yanaşma konsepsiyasını pozmamalıdır. Onlar nə dövlətin majoritar səhmdar kimi qərarlara dair öz qanuni təsirini həyata keçirməyə mane olmalı, nə də minoritar səhmdarlara qərar qəbulu prosesini ləngitməyə imkan verməlidir.

*Dördüncü hissənin şərhi:*

## IV. MARAQLI TƏRƏFLƏRLƏ ƏLAQƏLƏR

***Dövlət mülkiyyəti siyasəti DMM-lərin maraqlı tərəflərə qarşı məsuliyyətlərini tam tanımalı və onlardan maraqlı tərəflərlə münasibətləri barədə hesabat vermələrini tələb etməlidir.***

Bəzi İƏİT ölkələrində, hüquqi status, qaydalar və ya ikitərəfli sazişlər/müqavilələr dövlət müəssisəsində müəyyən maraqlı tərəflərə xüsusi hüquqlar verir. Bəzi DMM-lər maraqlı tərəflərə verilmiş hüquqlar baxımından fərqli idarəetmə strukturları ilə seçilirlər, əsasən də işçilərə şurada təmsil olunma hüququnun verilməsinə və ya məsləhətçi şuralar vasitəsilə işçilərin nümayəndələrinə və istehlakçı təşkilatlara məsləhət vermək/qərar qəbul etmək hüququnun verilməsinə görə.

DMM-lər davamlı və maliyyə cəhətdən güclü müəssisələrin yaradılması üçün maraqlı tərəflərlə əlaqələrin əhəmiyyətini dərk etməlidirlər. Maraqlı tərəflərlə əlaqələr xüsusilə DMM-lər üçün əhəmiyyətlidir, çünki bu əlaqələr, dövlət müəssisəsinin xidmətlərin göstərilməsinə dair ümumi öhdəlikləri olduqda, onların yerinə yetirilməsi üçün mühüm ola bilər və DMM-lər, xüsusilə bəzi infrastruktur sektorlarında işləyən müəssisələr, iqtisadi inkişaf potensialına və fəaliyyət göstərdikləri cəmiyyətlərə mühüm təsir göstərmək imkanına malik ola bilərlər. Bundan əlavə, bəzi investorlar investisiya barədə qərar qəbul etdikdə maraqlı tərəflərlə əlaqələrə xüsusi diqqət yetirir və maraqlı tərəflərə aid məsələlərlə bağlı potensial məhkəmə çəkişmələrinə dair riskləri nəzərə alırlar. Beləliklə, maraqlı tərəflərə dair işlək siyasətin şirkətin uzunmüddətli strateji məqsədlərinə və reputasiyaya göstərə biləcək təsirin koordinasiya və ya sahiblik edən təşkilat və dövlət müəssisəsi tərəfindən dərk edilməsi vacibdir. Bu səbəbdən onlar maraqlı tərəflərə dair aydın siyasəti müəyyən etməli və adekvat şəkildə açıqlamalıdırlar.

Lakin, hər hansı formada kompensasiyasının verildiyi hallar istisna olmaqla, hökumət özəl sektorun məqsədlərindən fərqli olan məqsədlər üçün DMM-ləri istifadə etməməlidir. Maraqlı tərəflərə verilmiş hər hansı hüquqlar və ya qərar qəbulu prosesinə olan təsir aydın müəyyən edilməlidir. Maraqlı tərəflərə qanunvericiliklə verilmiş hər hansı hüquqlara və ya dövlət müəssisəsi tərəfindən yerinə yetirilməli olan hər hansı xüsusi öhdəliklərə baxmayaraq, şirkətin idarəetmə orqanları, onun səhmdarların ümumi yığıncağı və şura, qərar qəbul etmək səlahiyyətini özündə saxlamalıdır.

***A. Hökumətlər, koordinasiya və ya sahiblik edən təşkilat və DMM-lər maraqlı tərəflərin qanunla və ya ikitərəfli sazişlərlə müəyyən edilmiş hüquqlarını tanımalı və qəbul etməlidir, və bu məsələ ilə bağlı İƏİT-in Korporativ İdarəetmə Prinsiplərinə müraciət etməlidirlər.***

Əsas səhmdar olaraq, dövlət korporativ qərarların qəbulunu nəzarət altında saxlamaq və maraqlı tərəflərin zərərinə qərarlar qəbul etmək imkanında ola bilər. Bu səbəbdən, maraqlı tərəflərin hüquqlarını qorumaq üçün mexanizm və prosedurların yaradılması vacibdir. Koordinasiya və ya sahiblik edən təşkilatın bu məsələyə dair aydın siyasəti olmalıdır. DMM-lər maraqlı tərəflərin qanunvericiliklə, qaydalarla və ikitərəfli sazişlərlə müəyyən edilmiş hüquqlarını tam qəbul etməlidir. Onlar özəl sektorun listinqdən keçmiş şirkətləri kimi hərəkət etməli və İƏİT-

in Korporativ İdarəetmə Prinsiplərinin maraqlı tərəflərlə əlaqələrə dair müddəalarına müraciət etməlidirlər.

İƏİT-in Korporativ İdarəetmə Prinsiplərinin tətbiqi müxtəlif maraqlı tərəflərin rolunun tam qəbul edilməsini nəzərdə tutur və onlarla fəal və faydalı əməkdaşlığı təşviq edir. Bu baxımdan, DMM-lər maraqlı tərəflərin öz hüquqlarını həyata keçirmək üçün vaxtı-vaxtında və müntəzəm surətdə müvafiq, dolğun və etibarlı məlumat almaq imkanına malik olmasını təmin etməlidirlər. Maraqlı tərəflər hüquqları pozulduğu halda onları bərpa etmək imkanına malik olmalıdırlar. İşçilər həmçinin qeyri-qanuni və qeyri-etik təcrübələrə qarşı etirazlarını şuraya sərbəst şəkildə bildirmək imkanında olmalı və bunu etdiklərinə görə onların hüquqları məhdudlaşdırılmamalıdır.

Bəzi müəssisələrdə maraqlı tərəflərlə əlaqələr üçün əhəmiyyətli hesab edildikdə, fəaliyyətin effektivliyinin yaxşılaşdırılması üçün işçilərin iştirakını artıran mexanizmlərin yaradılmasına icazə verilməlidir. Lakin, bu cür mexanizmlərin müvafiqliyi və yaradılması haqda düşünərkən, dövlət onların fəaliyyətin effektivliyinin yaxşılaşdırılması üçün mexanizmlərə çevrilməsi ilə əlaqədar çətinlikləri nəzərə almalıdır.

***B. Listinqdən keçmiş və ya iri DMM-lər, o cümlədən mühüm ictimai məqsədlərə qulluq edən DMM-lər maraqlı tərəflərlə əlaqələr barədə hesabat verməlidirlər.***

Qabaqcıl təcrübələr listinqdən keçmiş şirkətlərdən maraqlı tərəflərlə bağlı məsələlərin açıqlanmasını tələb edir. Bunu etməklə DMM-lər daha şəffaf fəaliyyət göstərməyə və maraqlı tərəflərlə əməkdaşlıq etməyə meylli olduqlarını nümayiş etdirəcəklər. Bu da öz növbəsində etibarı artıracaq və onların reputasiyasını yaxşılaşdıracaqdır. Bu səbəbdən, listinqdən keçmiş və ya iri DMM-lər investorlara, maraqlı tərəflərə və geniş ictimaiyyətə maraqlı tərəflərə dair öz siyasəti və onun effektiv tətbiqi barədə məlumat verməlidir. Bu həmçinin mühüm ictimai siyasət məqsədlərinə qulluq edən və ya, həcmindən asılı olaraq müvafiq xərcləri nəzərə almaqla xidmətlərin göstərilməsinə dair ümumi öhdəliklər daşıyan bütün DMM-lərə aiddir. Maraqlı tərəflərlə əlaqələr barədə hesabata dövlət müəssisəsinin sosial siyasəti və ətraf mühitin qorunması siyasəti barədə məlumat, DMM-lərin bu məsələlərlə bağlı xüsusi məqsədləri olduqda daxil edilməlidir.

Bu baxımdan, DMM-lər qabaqcıl təcrübələrə müraciət edə bilər və son illərdə hazırlanmış sosial və ətraf mühitin qorunması ilə bağlı məsuliyyətin açıqlanmasına dair rəhbərliklərin tələblərinə riayət edə bilərlər.

DMM-lərə həmçinin öz maraqlı tərəflərlə əlaqələri barədə hesabatının etibarlığını artırmaq üçün, bu hesabatı müstəqil təhlildən keçirmək tövsiyyə edilə bilər.

Koordinasiya və ya sahiblik edən təşkilat öz növbəsində aydın siyasət qurmaqla və geniş ictimaiyyətə məcmu məlumatı açıqlamaqla maraqlı tərəflərlə bağlı açıqlama məsələlərini təkmilləşdirə bilərlər.

***C. DMM-lərin şuralarından daxili etika məcəllələrinə riayət etmə proqramlarının hazırlanması, tətbiq edilməsi və çatdırılması tələb edilməlidir. Bu etika məcəllələri ölkə normalarına əsaslanmalı, beynəlxalq öhdəliklərə uyğun olmalı, və şirkət və onun törəmələrinə şamil edilməlidir***.

İƏİT-in Korporativ İdarəetmə Prinsipləri Şuraya yüksək etik standartların tətbiqini tövsiyyə edir. Bu şirkətin gündəlik fəaliyyəti və uzunmüddətli öhdəlikləri baxımından etibarlılığını artırmaq

vasitəsi kimi şirkətin uzunmüddətli maraqlarına qulluq edir. DMM-lərə gəldikdə, burada, biznes maraqlarının siyasi və ictimai siyasət maraqları ilə daimi kəsişməsini nəzərə alsaq, yüksək etik standartlardan uzaqlaşmaq təhlükəsi daha böyük ola bilər. Bundan əlavə, DMM-lər ölkənin ümumi biznes mədəniyyətinin yaradılmasında mühüm rol oynaya bildiyinə görə, onların yüksək etik standartlara riayət etməsi vacibdir.

DMM-lər və onların vəzifəli şəxsləri özlərini yüksək etik standartlara uyğun aparmalıdırlar. DMM-lər ölkə normalarına və daha geniş davranış qaydalarına riayət etməyə çalışaraq daxili etika məcəllələrini qəbul etməlidirlər. Buraya bütün İƏİT ölkələri tərəfindən qəbul olunan və İLO-nun Fundamental Prinsiplər və Əmək Hüquqları Deklarasiyasının dörd prinsipini hamısını əks etdirən İƏİT-in Çoxmillətli Müəssisələrə dair Rəhbərliyinə və İƏİT-in Rüşvətxorluğa qarşı Konvensiyasına uyğunlaşmaq öhdəliyi də daxil edilməlidir. Etika məcəlləsi bütünlüklə dövlət müəssisəsinə və onun törəmələrinə şamil edilməlidir.

Etika məcəlləsi bütün işçilərdən tələb olunan davranışın aydın və ətraflı izahını verməli və uyğunlaşma proqramları yaradılmalıdır. Bu cür məcəllələrin bütün işçiləri və aidiyyatı olan maraqlı tərəfləri cəlb etmək üçün birgə hazırlanması qabaqcıl təcrübə sayılır. Bu məcəllələr həmçinin şuralar və baş menecment tərəfindən tam dəstəklənməli və tətbiq edilməlidir.

Etika məcəlləsi təchizat proseslərinə dair rəhbərlikləri, o cümlədən şirkətin vəzifəli şəxslərinin qeyri-qanuni və qeyri-etik davranışı barədə məlumat vermələri üçün maraqlı tərəflərin, xüsusilə işçilərin qorunması və təşviq edilməsi mexanizmlərinin yaradılmasını daxil etməlidir. Bu baxımdan, sahiblik edən təşkilatlar işçilər tərəfindən, şəxsən və ya onları təmsil edən orqanların vasitəsilə, və şirkətdən kənardan edilən şikayətlər üçün onların nəzarəti altında olan DMM-lərin effektiv "təhlükəsiz sığınacaqlar" yaratmasını təmin etməlidirlər. DMM-lərin şuraları işçilərə və ya onların nümayəndələrinə şurada müstəqil olan bir şəxslə, və ya şirkət daxilindəki ombudsman ilə birbaşa məxfi əlaqə yaratmaq üçün imkan verə bilər. Etika məcəllələri həmçinin, şikayyət ərizələri əsassız olduqda və ya düzgün, ciddi olmadıqda və ya qərəzli olaraq verildikdə, inzibati tədbirlərin görülməsini daxil etməlidir.

*Beşinci hissənin şərhi:*

## V. AÇIQLAMA VƏ ŞƏFFAFLIQ

***DMM-lər İƏİT-in Korporativ İdarəetmə Prinsiplərinə uyğun olaraq şəffaflığın yüksək standartlarına riayət etməlidir.***

***A. Koordinasiya və ya sahiblik edən təşkilat DMM-lərə dair yekdil və məcmu hesabatlıq sistemini hazırlamalı və hər il dövlətə məxsus müəssisələr haqqında məcmu hesabatı dərc etməlidir.***

Koordinasiya və ya sahiblik edən təşkilat DMM-lərə dair məcmu hesabatlıq sistemini yaratmalı və onu geniş ictimaiyyət, Parlament və kütləvi informasiya vasitələri üçün nəzərdə tutulmuş əsas açıqlama vasitəsinə çevirməlidir. Hesabatlıq sistemi bütün oxucularda dövlət müəssisəsinin ümumi fəaliyyəti və inkişafı barədə aydın təsəvvürün yaradılmasına imkan verən bir şəkildə qurulmalıdır. Bundan əlavə, məcmu hesabatlıq həmçinin koordinasiya və ya sahiblik edən təşkilata dövlət müəssisəsinin fəaliyyətinin nəticələrini daha yaxşı anlmağa və öz siyasətini təkmilləşdirməyə kömək edir.

Məcmu hesabatlıq dövlət tərəfindən təqdim olunan illik məcmu hesabatla nəticələnməlidir. Bu məcmu hesabatda əsas diqqət maliyyə nəticələrinə və dövlət müəssisəsilərinin dəyərinə yönəldilməlidir. Hesabatda ən azı dövlət portfelinin ümumi dəyəri barədə məlumat verilməlidir. Hesabata həmçinin dövlətin mülkiyyət siyasəti və onun necə tətbiq edilməsi barədə ümumi məlumat daxil edilməlidir. Bundan əlavə hesabata mülkiyyət funksiyasının təşkil edilməsi (yaradılması) barədə məlumat, o cümlədən dövlət müəssisəsinin inkişafının icmalı, birləşmiş maliyyə nəticələri və şuralarda olan dəyişiklər haqqında hesabat daxil edilməlidir. Məcmu hesabatda əsas maliyyə göstəriciləri, o cümlədən tədavül, gəlir, əməliyyat fəaliyyətindən gələn nağd pulların hərəkəti, məcmu investisiyalar, səhmdar kapitalının gəlirliyi, kapitalın aktivlərə nisbəti və dividendlər haqqında məlumatı daxil etməlidir. Məlumatın birləşdirilməsi üçün istifadə edilmiş üsullar barədə həmçinin məlumat verilməlidir. Məcmu hesabata həmçinin ən mühüm dövlət müəssisəsi haqqında ayrıca hesabat daxil edilə bilər. Qeyd etmək lazımdır ki, məcmu hesabat mövcud olan hesabatlıq tələbləri, məsələn Parlamentə təqdim edilən illik hesabatları təkrarlamamalı, əksinə tamamlamalıdır. Bəzi sahiblik edən təşkilatlar yalnız "qismən" ümumi, yəni müqayisə edilə bilən sahələrdə (sektorlarda) fəaliyyət göstərən DMM-ləri əhatə edən hesabatlar dərc etməyi nəzərdə tuta bilər. Nəhayət, ildə iki dəfə dərc edilən məcmu hesabatlar dövlət mülkiyyətçiliyinin şəffaflığını daha da artıracaqdır.

Bəzi ölkələrdə geniş ictimaiyyətə məlumatı asan əldə etməyə imkan verən internet saytların yaradılması koordinasiya və ya sahiblik edən təşkilat üçün faydalı olduğunu sübuta yetirmişdir. Bu cür saytlarda həm mülkiyyət funksiyasının təşkili həm də ümumi mülkiyyət siyasəti, o cümlədən dövlət sektorunun həcmi, inkişafı, fəaliyyətinin nəticələri və dəyəri haqqında məlumat verilə bilər.

***B. DMM-lər effektiv daxili audit prosedurlarını hazırlamalı və şura və audit komitəsi və ya şirkətin ekvivalent orqanı tərəfindən monitorinq edilən və bu orqanlara birbaşa hesabat verən***

***daxili audit funksiyasını yaratmalıdır.***

Səhmləri qiymətli kağızlar bazarlarında alınıb-satılan iri şirkətlərdə olduğu kimi, iri DMM-lər üçün daxili audit sisteminin yaradılması vacibdir. "Daxili audit təşkilatın dəyərini artırmaq və əməliyyatlarını təkmilləşdirmək üçün nəzərdə tutulan müstəqil şəkildə obyektiv qarantiyaların və məsləhətlərin verilməsi fəaliyyətidir. Bu şirkətə risklərin idarə edilməsi, nəzarət və idarəetmə proseslərinin effektivliyini qiymətləndirmək və artırmaq üçün sistematik və müntəzəm yanaşmadan istifadə etməklə məqsədlərinə nail olmaqda köməklik edir.*" Daxili auditorlar effektiv və aydın açıqlama proseslərinin və geniş mənada düzgün daxili nəzarət mexanizmlərinin mövcudluğunu təmin etmək üçün mühümdür. Onlar kifayət qədər ətraflı məlumatı toplamaq, seçmək və təqdim etmək üçün prosedurlar müəyyən etməlidirlər. Onlar həmçinin şirkətin prosedurlarının adekvat qaydada tətbiq edildiyini təmin etməli və şirkət tərəfindən açıqlanan məlumatın keyfiyyətinə zəmanət vermək iqtidarında olmalıdırlar.

Onların müstəqilliyini və səlahiyyətlərini artırmaq üçün, daxili auditorlar bir pilləli idarəetmə sistemi olan ölkələrdə şuranın (direktorlar şurasının) və onun audit komitəsinin adından hərəkət etməli və birbaşa onlara hesabat verməli, iki pilləli idarəetmə sistemi olan ölkələrdə isə müşahidə şurasına və ya, mövcuddursa, audit şuralarına hesabat verməlidir. Daxili auditorların Şuranın sədrinə və üzvlərinə, habelə audit komitəsinə məhdudiyyətsiz çıxışı olmalıdır. Onların hesabatı şuranın şirkətin real fəaliyyətini və əməliyyatlarını qiymətləndirmək qabiliyyəti üçün əhəmiyyətlidir. Kənar və daxili auditorlar arasında məsləhətləşmələr təşviq edilməlidir. Nəhayət, daxili nəzarətlə bağlı hesabatın daxili nəzarət strukturunu və maliyyə hesabatlığı prosedurlarını təsvir etməklə maliyyə hesabatlarına daxil edilməsi qabaqcıl təcrübə kimi məsləhət görülür.

***C. DMM-lər, xüsusilə iri müəssisələr, beynəlxalq standartlara uyğun olaraq illik müstəqil kənar auditdən keçməlidir. Xüsusi dövlət nəzarəti prosedurlarının mövcudluğu müstəqil kənar auditi əvəz etmir.***

DMM-lərin mütləq olaraq kənar, müstəqil auditorlar tərəfindən auditdən keçirilməsi tələb olunmur. Adətən bu mühasibat məlumatının keyfiyyətinə və bütövlüyünə zəmanət vermək üçün bəzən kifayət bilinən xüsusi dövlət audit və nəzarət sistemlərinin mövcudluğundan irəli gəlir. Bu maliyyə nəzarətləri adətən həm DMM-ləri, həm də koordinasiya və ya sahiblik edən təşkilatı yoxlaya bilən xüsusi dövlət və ya "ali" audit təşkilatları tərəfindən həyata keçirilir. Bir çox hallarda onlar həmçinin şura iclaslarında iştirak edir və çox vaxt DMM-lərin fəaliyyəti barədə birbaşa Parlamentə məlumat verirlər. Lakin, bu xüsusi nəzarətlər dövlət müəssisəsinin ümumi fəaliyyətinin deyil, dövlət vəsaitlərinin və büdcədən ayrılmış resursların istifadəsinə nəzarət etmək üçün nəzərdə tutulmuşdur.

Təqdim olunan məlumata etibarı artırmaq üçün, dövlət xüsusi dövlət auditlərindən əlavə ən azı bütün iri DMM-lərin beynəlxalq standartlara uyğun aparılan kənar auditdən keçməsini tələb etməlidir. Kənar auditorların seçilməsi üçün adekvat prosedurlar hazırlanmalı və onların menecmentdən, o cümlədən iri səhmdarlardan, yəni, DMM-lərə gəldikdə, dövlətdən müstəqil olmasını təmin edilməlidir. Bundan əlavə, kənar auditorlar özəl sektorda fəaliyyət göstərən şirkətlər üçün müəyyən edilmiş eyni müstəqillik meyarlarına cavab verməlidirlər. Buraya əsasən auditi aparılan DMM-lərə məsləhət və ya digər qeyri-audit xidmətlərinin göstərilməsinə

[4] Daxili Auditorlar İnstitutunun tərifi (www.theiia.org).

məhdudiyyətlərin qoyulması, o cümlədən ortaqların (audit partnyorların) və ya audit şirkətlərinin vaxtaşırı dəyişilməsi daxildir.

***D. DMM-lər listinqdən keçmiş şirkətlərlə eyni yüksək keyfiyyətli mühasibat və audit standartlarına riayət etməlidirlər. İri və ya listinqdən keçmiş DMM-lər maliyyə və qeyri-maliyyə məlumatlarını yüksək keyfiyyətli beynəlxalq səviyyədə qəbul olunmuş standartlara uyğun olaraq açıqlamalıdırlar.***

DMM-lərin səhmləri qiymətli kağızlar bazarında alınıb-satılan şirkətlər qədər şəffaf olması geniş ictimaiyyətin marağındadır. Hüquqi statuslarından asılı olmayaraq və hətda listinqdən keçməməsinə baxmayaraq, bütün DMM-lər qabaqcıl mühasibat uçotu və audit standartlarına uyğun olaraq hesabat verməlidirlər.

Bütün DMM-lər maliyyə və qeyri-maliyyə məlumatlarını açıqlamalı və iri və listinqdən keçmiş DMM-lər bunu yüksək keyfiyyətli beynəlxalq səviyyədə qəbul olunmuş standartlara uyğun şəkildə etməlidir. Bununla maliyyə hesabatlarının dövlət müəssisəsinin şura üzvləri tərəfindən imzalanması və bu hesabatların dövlət müəssisəsinin fəaliyyətini və maliyyə durumunu bütün mühüm məsələlər üzrə düzgün və ədalətli əks etdirməsinin Baş İcraçı Direktorun və Baş Maliyyə Direktoru tərəfindən təsdiqlənməsi nəzərdə tutulur.

Hansı DMM-lərin yüksək keyfiyyətli beynəlxalq səviyyədə qəbul olunmuş standartlara riayət etməli olduğunu müəyyənləşdirmək üçün, mümkün qədər məsrəflərin və üstünlüklərin təhlili aparılmalıdır. Bu təhlil zamanı tələb olunan açıqlama şərtlərinin şura və menecment üçün öz vəzifələrini peşəkar səviyyədə yerinə yetirmək üçün həm stimul həm də vasitə olması nəzərə alınmalıdır. Müəyyən həcmli DMM-lər mühüm ictimai məqsədlər daşımadıqda, istisna edilə bilər. Bu cür istisnalara praktiki nöqteyi nəzərdən qərar verilir və ölkələr, sənaye sektorları və dövlət sektorunun həcmi üzrə fərqlənir.

Yüksək dərəcəli açıqlama həmçinin mühüm ictimai məqsədlər daşıyan DMM-lər üçün faydalıdır. Bu cür açıqlama dövlət müəssisəsinin dövlətin büdcəsinə, dövlətin daşıdığı risklərə mühüm təsir göstərdiyi və ya daha qlobal ictimi təsiri olduğu təqdirdə xüsusilə vacibdir. Məsələn, Avropa Birliyində ictimai əhəmiyyətli xidmətlər göstərdiyinə görə dövlət subsidiyalarını almaq hüququna malik olan şirkətlərdən bu xidmətlərə görə ayrı hesabatların aparılması tələb olunur.

***E. DMM-lər İƏİT-in Korporativ İdarəetmə Prinsiplərində təsvir edilmiş bütün məsələlərə dair mühüm məlumatı açıqlamalı, habelə mülkiyyətçi kimi dövlətin və geniş ictimaiyyətin diqqətini əhəmiyyətli sahələrə yönəltməlidir.***

İƏİT-in Korporativ İdarəetmə Prinsiplərində səhmləri fond bazarlarında alınıb-satılan şirkətlər üçün açıqlamanın hansı əsas elementlərdən ibarət olması göstərilir. DMM-lər ən azı bu tələblərə, o cümlədən maliyyə və əməliyyat nəticələrinə, mükafatlandırma siyasətinə, əlaqədar şəxslərlə əməliyyatlara, idarəetmə strukturlarına və idarəetmə siyasətinə dair tələblərə uyğun olmalıdırlar. DMM-lər hər hansı korporativ idarəetmə məcəlləsinə riayət etdiyi halda bunu açıqlamalı və onun hansı məcəllə olduğunu bildirməlidirlər. Şura üzvlərinin və əsas rəhbər işçilərinin mükafatlandırılmasına gəldikdə isə, bunun fərdi şəkildə edilməsi qabaqcıl təcrübə sayılır. Bu məlumata işdən azad edilmə və ya təqayüdə çıxma ilə əlaqədar müddəalar, və həmçinin

şura üzvlərinə xüsusi əmlakla və ya digər bu kimi vasitələrlə verilən mükafatlar daxil edilməlidir. DMM-lər aşağıdakı sahələrdə xüsusilə diqqətli olmalı və şəffaflığı artırmalıdırlar.

**Bu cür məlumata aşağıdakılar daxildir:**

**1. İctimaiyyət üçün şirkətin məqsədləri və onların yerinə yetirilməsi barədə aydın bəyanat.**

Hər bir dövlət müəssisəsinin öz ümumi məqsədlərini aydın anlaması vacibdir. Mövcud olan fəaliyyətin monitorinqi sistemindən asılı olmayaraq, müəssisənin toqquşan məqsədlər arasında kompromisi necə əldə etməyə çalışması barədə məlumat əlavə olmaqla əsas ümumi məqsədlərin məhdud siyahısı müəyyən edilməlidir.

Dövlət majoritar səhmdar olduqda və ya dövlət müəssisəsinə effektiv nəzarət etdikdə, şirkətin məqsədləri bütün digər investorlara, bazar iştirakçılarına və geniş ictimaiyyətə açıqlanmalıdır. Bu cür açıqlama öhdəlikləri şirkətin rəhbər işçilərini şirkətin məqsədlərini özləri üçün aydınlaşdırmağa təşviq edir və menecmentin bu məqsədlərə nail olmaq üçün səylərini artıra bilər. Bütün səhmdarlar, bazar və geniş ictimaiyyət müəyyən edilmiş strategiyanı və menecment tərəfindən qəbul edilmiş qərarları qiymətləndirmək üçün bu öhdəliklərdən orientir kimi istifadə edə biləcəklər.

DMM-lər əsas fəaliyyət nəticələrini açıqlamaqla öz məqsədlərini nə dərəcədə yerinə yetirdikləri haqqında hesabat verməlidirlər. Dövlət müəssisəsi həmçinin ümumi xidmətlərin göstərilməsinə dair öhdəliklər kimi ictimai məqsədlər daşıdıqda, o, bu məqsədlərin nail olunması üçün hansı addımların atıldığı barədə də hesabat verməlidir.

**2. Şirkətin mülkiyyət və səsvermə strukturu.**

DMM-lərin mülkiyyət və səsvermə strukturunun şəffaf olması bütün səhmdarlarda nağd pulların hərəkətində olan payları və səsvermə hüquqları barədə aydın təsəvvürün yaradılması üçün vacibdir. Dövlət payının qanuni mülkiyyətçisi(nin) kim olduğu və dövlətin mülkiyyət hüquqlarının istifadə edilməsinə görə məsuliyyətin harada cəmləşdiyi həmçinin aydın olmalıdır. Dövlət müəssisəsinin mülkiyyət və ya nəzarət strukturunu dəyişə biləcək gızıl səhm və ya veto hüququ kimi hər hansı xüsusi hüquqlar və ya sazişlər açıqlanmalıdır.

**3. Hər hansı mühüm risk faktorları və bu riskləri idarə etmək üçün görülmüş tədbirlər.**

Ən böyük çətinliklər DMM-lər tərəfindən müvafiq risklər aydın müəyyən etməmiş, onlar qiymətləndirməmiş və onlar haqqında lazımi hesabat verilməmiş heysiyətli strategiyalar qurduqda yaranır. Mühüm risk faktorların açıqlanması siyasi, əməliyyat və ya valyuta məzənnəsi riskləri kimi yeni risklərlə üzləşən dövlət tənzimlənməsindən azad olmuş və çoxmillətli təsərrüfat sektorlarında fəaliyyət göstərən DMM-lər üçün xüsusilə vacibdir. Mühüm risk faktorları haqqında hesabat verilməsə, DMM-lər öz maliyyə durumları və ümumi fəaliyyəti barədə yanlış təsəvvür yarada bilərlər. Bu da öz növbəsində düzgün olmayan strateji qərarlara və gözlənilməz maliyyə itkilərinə gətirib çıxara bilər.

Aparılan əməliyyatlarla bağlı risklərin xüsusiyyətinin və dərəcəsinin DMM-lər tərəfindən lazımi qaydada açıqlanması, riskləri müəyyən etmək, idarə etmək, nəzarət etmək və onlara dair hesabat vermək üçün etibarlı daxili risklərin idarəedilməsi sisteminin yaradılmasını tələb edir. DMM-lər yeni və təkmilləşən standartlara uyğun hesabat verməli və bütün balansdan kənar aktivləri və

passivləri açıqlamalıdır. Lazım olduqda, bu cür hesabat risklərin idarəedilməsi strategiyalarını, o cümlədən onların tətbiq edilməsi üçün yaradılmış sistemləri əhatə edə bilər. Hasilat sahəsində işləyən şirkətlər qabaqcıl təcrübələrə uyğun olaraq öz ehtiyatlarını açıqlamalıdırlar, ki bu ehtiyatlar onların dəyərinin və üzləşdiyi risklərin əsas elementidir.

Dövlətin Özəl Şektorla Birgə Layihələri (Public Private Partnership) həmçinin adekvat açıqlanmalıdırlar. Bu cür iş təşəbüsləri adətən ictimai xidmətlərin göstərilməsinə və ya ictimai infrastrukturun yaradılmasına görə ictimai və özəl partnyorlar arasında risklərin, vəsaitlərin (resursların) ötürülməsi ilə və mükafatlandırmalarla səciyyələnir və bu səbəbdən yeni və xüsusi mühüm risklər məruz qala bilərlər.

**4. Hər hansı maliyyə yardımı, o cümlədən dövlətdən alınmış qarantiyalar və DMM-lər adından götürülmüş öhdəliklər.**

Dövlət müəssisəsinin maliyyə durumu haqqında düzgün və bütöv təsəvvürün yaradılması üçün dövlətlə dövlət müəssisəsi arasında qarşılıqlı öhdəliklərin, maliyyə yardımının və risklərin bölüşdürülməsi mexanizmlərinin müvafiq qaydada açıqlanması vacibdir. Açıqlamaya dövlət müəssisəsi tərəfindən dövlətdən alınan har hansı qrantlar və ya subsidiyalar, dövlət tərəfindən dövlət müəssisəsinə əməliyyatların aparılması üçün verilən hər hansı qarantiyalar, o cümlədən dövlət tərəfindən dövlət müəssisəsi adından götürülən hər hansı öhdəliklər daxil olmalıdır. Qarantiyaların açıqlanması dövlət müəssisəsinin özü və ya dövlət tərəfindən edilə bilər. Parlamentin büdcə proseslərini pozmamaq üçün dövlət qarantiyalarını monitorinq etməsi qabaqcıl təcrübə hesab edilir.

**5. Əlaqədar təşkilatlarla hər hansı mühüm əməliyyatlar.**

Əlaqədar təşkilatlarla dövlət müəssisəsi arasında əməliyyatlar, məsələn bir dövlət müəssisəsinin digər dövlət müəssisəsinin səhmdar kapitalına investisiya, potensial sui-istifadə mənbəyinə çevrilə biləcəyinə görə açıqlanmalıdır. Əlaqədar təşkilatlarla əməliyyatlar haqqında hesabatlara bu əməliyyatların düzgünlüyünü və məqsədəuyğunluğunu qiymətləndirmək üçün lazım olan bütün məlumatlar daxil edilməlidir.

*Altıncı hissənin şərhi:*

## VI. DÖVLƏT MÜƏSSİSƏLƏRİNİ ŞURALARININ VƏZİFƏLƏRİ

***DMM-lərin şuraları strateji idarəetmə funksiyasını yerinə yetirmək və menecmentin fəaliyyətinin monitorinqini aparmaq üçün lazım olan səlahiyyətlərə, səriştəyə və obyektivliyə malik olmalıdır. Onlar düzgün hərəkət etməli və öz hərəkətlərinə görə cavabdeh olmalıdırlar.***

Bir sıra ölkələrdə DMM-lərin şuraları çox böyük olur və biznes baxışına və müstəqil fikirə malik olmurlar. Onların tərkibinə həmçinin dövlət idarəetmə orqanlarından həddindən artıq sayda üzvlər daxil edilir. Bundan əlavə, onlara şuranın məsuliyyətinə aid olan vəzifələrın hamısı verilmir və beləliklə onlar baş menecmentin və sahiblik edən təşkilatın hökmranlığına məruz qala bilərlər. Bundan əlavə, onların funksiyaları bəzi sahələrdə xüsusi dövlət tənzimləyici orqanları tərəfindən təkrarlana bilər.

DMM-lərin şuralarının gücləndirilməsi və keyfiyyətinin artırılması dövlət müəssisəsələrinin korporativ idarəetmə təcrübələrinin təkmilləşdirilməsində fundamental addımdır. DMM-lərdə şirkətin maraqlarından hərəkət edən və qəbul olunmaz siyasi müdaxilə etmədən menecmenti effektiv monitorinq etməyə qadir olan güclü şuraların olması vacibdir. Bu baxımdan, suraların səriştəliyinin təmin edilməsi, onların müstəqilliyinin artırılması və onların fəaliyyətinin təkmilləşdirilməsi tələb olunur. Eyni zamanda onlara öz funksiyalarını yerinə yetirmək üçün aydın və tam məsuliyyətin verilməsi və onların düzgün hərəkət etməsinin təmin edilməsi mühümdür.

***A. DMM-lərin şuralarının səlahiyyətləri aydın şəkildə müəyyən edilməli və onlar şirkətin fəaliyyətinə görə əsas məsuliyyət daşımalıdırlar. Şura şirkət sahibləri qarşısında tam cavabdeh olmalı, şirkətin maraqlarına qulluq etməli və bütün səhmdarlara eyni yanaşmalıdır.***

Prinsip etibarıla, DMM-lərin şuraları şirkət qanunvericiliyində müəyyən edilmiş eyni vəzifələr və öhdəliklər daşımalıdırlar. Lakin, təcrübədə şura üzvləri, xüsusən də dövlət tərəfindən təyin edilmiş üzvlər daha məhdud məsuliyyət daşıya bilərlər.

DMM-lərin şuralarının vəzifələri müvafiq qanuvericikdə, qaydalarda, dövlətin mülkiyyət siyasətində və şirkətlərin nizamnamələrində müəyyən edilməlidir. Bütün şura üzvlərinin şirkətin maraqlarına qulluq etməsi və bütün səhmdarlara eyni yanaşması üçün qanuni öhdəliyin olması mühümdür və xüsusi vurğulanmalıdır. Şura üzvlərinin kollektiv və fərdi məsuliyyəti aydın müəyyən edilməlidir. Müxtəlif şura üzvlərinin məsuliyyətləri arasında, bu üzvlərin dövlət və ya hər hansı digər səhmdarlar və ya maraqlı şəxslər tərəfindən təyin edilməsindən asılı olmayaraq heç bir fərq olmamalıdır. DMM-lərin şura üzvlərini öz vəzifələri və öhdəlikləri barədə məlumatlandırmaq üçün təlimlərin keçirilməsi tələb olunmalıdır.

Şuranın məsuliyyətli olmasını təşviq etmək üçün və şuranın effektiv fəaliyyət göstərməsi üçün, onlar özəl sektorun riayət etdiyi qabaqcıl təcrübələrə uyğun olmalı və üzvlərin sayını məhdudlaşdırmalıdırlar. Təcrübə göstərir ki, daha kiçik şuralar həqiqi strateji müzakirələrin aparılmasına imkan verir və formal orqana çevrilməyə daha az meyllidirlər.

Şuranın məsuliyyətini artırmaq üçün, Direktorların Hesabatı illik hesabatlarla birgə

hazılanmalı və kənar auditorlara təqdim edilməlidir. Direktorların Hesabatı təşkilatı məsələlər, maliyyə fəaliyyəti, mühüm risk faktorları, mühüm hadisələr, maraqlı tərəflərlə əlaqələr və koordinasiya və ya sahiblik edən təşkilat tərəfindən verilən göstərişlərin təsiri barədə məlumat verməli və onları şərh etməlidir.

***B. DMM-lərin şuraları menecmentin fəaliyyətinin monitorinqi və strateji idarəetmə funksiyalarını hökumət və sahiblik edən təşkilat tərəfindən müəyyən edilmiş məqsədlərə uyğun aparmalıdır. Onlar Baş İcraçı Direktoru təyin etmək və işdən azad etmək səlahiyyətinə malik olmalıdırlar.***

Bir çox hallarda, DMM-lərin şuralarına strateji rəhbərlik, menecmentə monitorinq və açıqlamaya nəzarət üçün tələb olunan tam məsuliyyət və səlahiyyətlər verilmir. DMM-lərin şuraları onların rollarına və vəzifələrinə iki tərəfdən, yəni sahiblik edən təşkilatlar və menecment tərəfindən müdaxilə edilməsini görə bilərlər. Koordinasiya və ya sahiblik edən təşkilat, və ya hətda hökumətin özü, şirkətin ümumi məqsədlərini müəyyən etmək onun vəzifəsi olsa da, və xüsusilə də məqsədlərin müəyyən edilməsi ilə strategiyanın müəyyən edilməsi arasında fərqin aydın olmamasını nəzərə alsaq belə, strateji məsələlərə müdaxilə etməyə olduqca meyilli ola bilərlər. DMM-lərin şuraları menecmenti monitorinq edilməsinə nə hüquqları nə də hətta səlahiyyətləri olmadığına görə, həmçinin çətinliklərlə üzləşə bilərlər. Bundan əlavə, müəyyən ölkələrdə menecmentlə mülkiyyət funksiyasını yerinə yetirən orqan və ya birbaşa hökumət arasında möhkəm əlaqə mövcuddur. DMM-lərin baş menecmenti birbaşa mülkiyyət funksiyasına və hökumətə hesabat verməyə və beləliklə şuradan yayınmağa çalışırlar.

Öz rollarını yerinə yetirmək üçün DMM-lərin şuraları fəal olaraq 1) ümumi korporativ məqsədlər çərçivəsində korporativ strategiyanı müəyyən etməli, monitorinqini aparmalı və nəzərdən keçirməli, 2) fəaliyyəti qiymətləndirmək üçün müvafiq meyarlar yaratmalı və əsas riskləri müəyyən etməli, 3) maliyyə hesabatlarının dövlət müəssisəsinin cari fəaliyyətini və əlaqədar riskləri düzgün əks etdirdiyini təmin etməklə, açıqlama və məlumatın çatdırılması prosesini monitorinq etməli, 4) menecmentin fəaliyyətini qiymətləndirməli və ona nəzarət etməli, 5) əsas rəhbər işçilərin effektiv əvəz edilməsi planını hazırlamalıdır.

DMM-lərin şuralarının əsas funkisyalarından biri Baş İcraçı Direktorun təyin edilməsi və işdən azad edilməsidir. Bu səlahiyyət olmadan DMM-lərin şuraları üçün monitorinqlə bağlı funksiyalarını tam yerinə yetirmək və dövlət müəssisəsinin fəaliyyətinin nəticələrinə görə məsuliyyət hiss etmək çətindir. Bəzi hallarda buna, sahiblik edən təşkilatla razılaşmalar əldə etməklə və ya məsləhətləşmələr aparmaqla nail olmaq olar. Bəzi ölkələrdə yeganə mülkiyyətçi Baş İcraçı Direktoru birbaşa təyin edə bilər və bu imkan DMM-lərə də verilir. Bu həmçinin mühüm ictimai xidmətlərin göstərilməsi həvalə edilən DMM-lərdə dövlətin əsas səhmdar olduğu təqdirdə də yarana bilər. Şuranın bütövlüyünün qorunub saxlanmasını təmin etmək üçün, qabaqcıl təcrübələr onunla məsləhətləşməyi tələb edir. Prosedurdan asılı olmayaraq, vəzifəyə təyin etmələr peşəkarlıq meyarlarına əsaslanmalıdır. Baş İcraçı Direktorun təyin edilməsi qaydaları və prosedurları şəffaf olmalı və Baş İnzibatçı (Baş İcraçı Direktor), şura və sahiblik edən təşkilat arasında hesabatlıq xəttlərini gözləməlidir. Baş İcraçı Direktorun təyin edilməsi ilə əlaqədar səhmdarlar arasında hər hansı sazişlər açıqlanmalıdır.

Menecmentin fəaliyyətinin nəticələrini qiymətləndirmək və ona nəzarət etmək öhdəliyindən irəli

gəlir ki, DMM-lərin şuraları həmçinin Baş İcraçı Direktorun mükafatlandırılmasına dair həlledici təsirə malik olmalıdır. Onlar Baş İcraçı Direktorun mükafatlandırılmasının fəaliyyətin nəticələrinə əsaslanmasını və açıqlanmasını təmin etməlidirlər.

***C. DMM-lərin şuraları o qaydada təşkil olunmalıdır ki, onlar obyektiv və müstəqil qərar verməyə qadir olsunlar. Qabaqcıl təcrübələr Sədr vəzifəsinin Baş İcraçı Direktor vəzifəsindən ayrı olmasını tələb edir.***

DMM-lərin şuralarının effektiv şəkildə obyektiv və müstəqil qərarlar qəbul etmək, top menecmenti monitorinq etmək və strateji qərarlar qəbul etmək imkanında olması üçün müvafiq olaraq strukturlaşdırılması onların səlahiyyətləndirilməsi üçün əsas şərtdir. İƏİT Prinsiplərində qeyd olunduğu kimi, "şura menecmentin fəaliyyətinə nəzarətin həyata keçirilməsi, maraqlar ziddiyyətinin aradan qaldırılması və şirkətə qarşı iddiaların tarazlaşdırılması ilə bağlı öz vəzifələrini yerinə yetirmək üçün obyektiv qərarlar qəbul etmək imkanına malik olmalıdır". Bütün şura üzvləri şəffaf proseslər vasitəsilə təyin edilməli və şirkətin ümumi maraqlarına qulluq etmək onların vəzifələrinə aid olması aydın müəyyən edilməlidir. Şura üzvləri onları təyin edən müxtəlif seçiciləri təmsil edən fərdi nümayəndələr kimi hərəkət etməməlidir. DMM-lərin şuraları hökumət və sahiblik edən təşkilatla razılaşdırılmış məqsədlərə nail olmağa yönətdiyi diqqəti yayındıra biləcək yersiz və birbaşa siyasi müdaxilədən qorunmalıdırlar.

DMM-lərin şuralarının obyektivliyini artırmaq üçün əsas tələb müstəqil qərarlar qəbul etməyə qadir olan lazımi sayda qeyri-icraçı şura üzvlərinin təyin edilməsidir. Bu şura üzvləri müvafiq səriştəyə və təcrübəyə malik olmalı və onların özəl sektordan cəlb edilməsi məsləhətdir. Bu, xüsusilə də rəqabətli bazarlarda fəaliyyət göstərən DMM-lərə, şuraları daha biznes-yönümlü etməyə kömək edəcəkdir. Onların təcrübəsinə həmçinin dövlət müəssisəsinin xüsusi öhdəliklərinə və siyasi məqsədlərinə aid bacarıqlar daxil edilə bilər. Bəzi ölkələrdə, şura tərkibinin müxtəlifliyi, o cümlədən gender müxtəliflik məsələləri gündəmdədir. Bütün şura üzvləri hər hansı mənafelərin toqquşması hallarını şuraya açıqlamalı və şura onların necə həll ediləcəyinə dair qərar verməlidir.

Şuranın fəaliyyətinin effektivliyini və müstəqilliyinin qiymətləndirilməsi və qorunub saxlanması mexanizmləri yaradılmalıdır. Məsələn, buraya mümkün olan vəzifəyə təkrar təyin olunmaların sayına məhdudiyyətlərin qoyulması və müstəqil məlumatın əldə olunması və müstəqil qiymətləndirmənin aparılması üçün şuraya verilmiş resurslar (vəsaitlər) daxil ola bilər.

Şuranın müstəqilliyinin artırılması üçün, İƏİT-in Korporativ İdarəetmə Prinsipləri bir pilləli şura strukturunda şura sədri ilə Baş İcraçı Direktor arasında rolların bölünməsinin yaxşı təcrübə sayıla biləcəyini hesab edir. Sədrin və Baş İcraçı Direktorun vəzifələrinin bölünməsi "hüquqların tarazlaşdırılmasına nail olmağa, hesabatlılığı artırmağa və şuranın menecmentdən müstəqil olaraq qərarlar qəbul etmək imkanlarını genişləndirməyə kömək edə bilər". Şuranın və onun Sədrinin vəzifələrinin aydın müəyyən edilməsi rolların bölünməsi nəticəsində şirkətin iki rəhbər işçiləri arasında lazımsız qarşıdurmanın yaranmasına gətirib çıxara biləcək halların qarşısını alacaqdır. İki pilləli şurası olan sistemlərdə, aşağı pillənin şurası (idarə heyətinin) sədrinin təqaüdə çıxdıqda Müşahidə Şurasının Sədri vəzifəsinə keçməməsi həmçinin qabaqcıl təcrübə hesab edilir.

Sədrin rolunun Baş İcraçı Direktor vəzifəsindən ayrılması şuranın menecmentdən müstəqilliyini artırmaq zərurətində olan DMM-lər üçün xüsusi əhamiyyət kəsb edir. Sədr şuranın

istiqamətləndirilməsində, onun effektiv işləməsinin təmin edilməsində və dövlət müəssisəsinin strateji idarəetməsində şura üzvlərinin fəal iştirakının təşviq edilməsində əsas rol oynayır. Sədr və Baş İcraçı Direktorun rolları ayrıldıqda, Sədr həmçinin şuranın effektiv fəaliyyəti üçün tələb olunan bacarıq və təcrübənin sahiblik edən təşkilatla razılaşdırılmasında rol oynayır. Beləliklə, Sədrin və Baş İcraçı Direktorun rollarının ayrılması DMM-lərdə effektiv şuraların yaradılmasında fundamental addım sayılmalıdır.

***D. İşçilərin şurada təmsil olunması tələb olunursa, bu təmsilçiliyin effektiv olacağına və şuranın bacarıqlarının, məlumatlılığının və müstəqilliyinin artırılmasına kömək edəcəyinə təminat verən mexanizmlər yaradılmalıdır.***

İşçilərin şurada təmsil olunması qanunvericiliklə və ya kollektiv sazişlərlə tələb olunursa, bu təmsilçilik şuranın müstəqilliyinin, səriştəliyinin və məlumatlılığının artırılmasına kömək edəcəyinə təminat verən şəkildə həyata keçirilməlidir. İşçilərin nümayəndələri bütün digər şura üzvləri ilə eyni vəzifələrə və məsuliyyətə malik olmalı, şirkətin maraqlarından hərəkət etməli və bütün səhmdarlara bərabər münasibət bəsləməlidirlər. DMM-lərin şuralarında işçilərin təmsil olunması özü-özlüyündə şuranın müstəqilliyinə təhlükə yaradan bir amil kimi qəbul edilməməlidir.

İşçiləri təmsil edən şura üzvlərinin peşəkarlığına və həqiqi müstəqilliyinə kömək edəcək və onların məxfiliyin qorunması ilə əlaqədar öz vəzifələrini yerinə yetirməsini təmin edəcək prosedurlar yaradılmalıdır. Bu prosedurlara adekvat, şəffaf və demokratik seçki prosedurları, təlimlər və mənafelər toqquşmasını idarə etmək üçün prosedurlar daxil edilməlidir. Şuranın işinə müsbət təsir bütün şura üzvlərinin, o cümlədən dövlət müəssisəsinin menecmentinin dəstəyini və əməkdaşlığını tələb edir.

***E. Lazım olduqda, DMM-lərin şuraları öz funksiyalarını, o cümlədən audit, risklərin idarəedilməsi və mükafatlandırma məsələlərinə dair vəzifələrini yerinə yetirməyə onlara kömək edən xüsusi komitələr yarada bilərlər.***

DMM-lərdə xüsusi şura komitələrdən istifadə etmə özəl sektorun təcrübələrinə uyğun olaraq artmışdır. Şuraların istifadə etdiyi xüsusi komitələrin növləri şirkətlərdən və sahələrdən asılı olaraq dəyişir və aşağıdakıları daxil edir: audit komitələri, mükafatlandırma komitələri, strateji komitələri, etika komitələri, və bəzi hallarda risk və təchizat komitələri. Bəzi ölkələrdə, audit komitəsinə ekvivalent olan orqan oxşar funksiyalar daşıyır.

Xüsusi şura komitələrinin yaradılması DMM-lərin şuralarının bacarıqlarının təkmilləşdirilməsində və onların risklərin idarəedilməsi və audit kimi məsələlərə dair məsuliyyətinin dəstəklənməsində mühüm rol oynaya bilər. Onların həmçinin şuranın mədəniyyətinin dəyişdirilməsində və təchizat, əlaqədar şəxslərlə əməliyyatlar və mükafatlandırma məsələləri kimi potensial mənafelər toqquşması olan sahələrdə şuranın müstəqilliyinin və qanunvericiliyə uyğunluğunun artırılmasında effektiv ola bilərlər.

Şura komitələri qanunvericiliklə tələb olunmadıqda, koordinasiya və ya sahiblik edən təşkilat xüsusi şura komitələrinin hansı hallarda yaradılacağını göstərən siyasəti müəyyən etməlidir. Bu siyasət bir sıra meyarlara, o cümlədən dövlət müəssisəsinin böyüklüyünə və onun qarşılaşdığı

xüsusi risklərə və ya DMM-lərin şuraları tərkibində təkmilləşdiriləcək bacarıqlara əsaslanmalıdır. İri DMM-lərdən şirkətin hər hansı bir vəzifəli şəxsi ilə görüşmək ixtiyarında olan audit komitəsinin və ya ekvivalent orqanın mövcud olması tələb olunmalıdır.

Xüsusi şura komitələrinə qeyri-icraçı direktor tərəfindən sədrlik edilməsi və bu komitələrə kifayət sayda müstəqil üzvlərin daxil edilməsi mühümdür. Müstəqil üzvlərin nisbəti sayı, o cümlədən tələb olunan (məsələn menecmentdən və ya əsas mülkiyyətçidən) müstəqillik növü komitənin növündən, məsələnin mənafelər toqquşmasına həssaslığından və dövlət sektorundan asılı olacaqdır. Məsələn, audit komitəsi yalnız müstəqil və maliyyə cəhətdən savadlı şura üzvlərindən təşkil olunmalıdır.

Xüsusi şura komitələrinin mövcudluğu şuranı bütün məsələlərə dair kollektiv məsuliyyətdən azad etməməlidir. Xüsusi şura komitələri onların vəzifələrini, səlahiyyətlərini və tərkibini müəyyən edən yazılı vəzifə təlimatlarına malik olmalıdırlar. Xüsusi şura komitələri ümumilikdə şuraya hesabat verməli və onların iclaslarının protokolları bütün şura üzvlərinə təqdim edilməlidir.

DMM-lərin şuraları şuranı təyin etmə proseslərinə dair sahiblik edən təşkilatla əməkdaşlıq etmək üçün həmçinin təyin etmə komitəsini yarada bilər. Bəzi ölkələrdə bir neçə əsas səhmdarlar daxil edilməklə təyin etmə komitələrinin şura strukturundan kənarda yaradılması təcrübədə istifadə edilir. Təyin etmə komitəsinin kim tərəfindən yaradılmasından asılı olmayaraq, şuranı seçki prosesində iştirak etməsi və məsləhətlər vermək qabiliyyəti vasitəsilə öz tərkibi və üzvlərinin əvəz edilməsi prosesinin planlaşdırılması haqqında düşünməyə cəlb etmək vacibdir. Bu təyin etmə prosesində diqqətin səriştəliyə yönəldilməsinə kömək edə bilər.

***F. DMM-lərin şuraları öz fəaliyyətlərinin illik qiymətləndirilməsini aparmalıdırlar.***

Sistematik qiymətləndirmə prosesi dövlət müəssisəsinin şurasının məsuliyyətini və üzvlərinin vəzifələrini işıqlandırdığına görə şuranın peşəkarlığının artırılmasında vacib bir alətdir. Bu həmçinin tələb olunan bacarıqları və şura üzvlərinin iş fəaliyyətinin istiqamətini müəyyənləşdirmək üçün mühümdür. Nəhayət, bu şura üzvlərinin öz üzvlük vəzifələrinə kifayət qədər vaxt sərf etməsi və səy göstərməsi üçün onlara faydalı bir stimuldur.

Qiymətləndirmə zamanı həm şuranın ümumi fəaliyyəti təhlil edilməli, həm də şura üzvlərinin ayrılıqda səmərəliliyinə və səylərinə qiymət verilə bilər. Lakin, fərdi şura üzvlərinin qiymətləndirilməsi şuranın nəzərdə tutulan və tələb olunan kollektiv işinə mane olmamalıdır.

Şuranın qiymətləndirilməsi Sədrin məsuliyyəti altında və inkişaf edən qabaqcıl təcrübələrə uyğun aparılmalıdır. Şuranın qiymətləndirilməsi şuranın üzvlərinin sayı, tərkibi və üzvlərinin mükafatlandırılması kimi məsələlərin nəzərdən keçirilməsinə öz köməyini göstərməlidir. Qiymətləndirmə həmçinin yeni və mövcud şura üzvləri üçün effektiv və müvafiq tanışlıq və təlim proqramlarının hazırlanmasında mühüm ola bilər. Qiymətləndirməni apararkən, DMM-lərin şuraları məsləhət üçün kənar və müstəqil ekspertlərə, o cümlədən sahiblik edən təşkilata müraciət edə bilərlər.

## Dövlətə Məxsus Müəssisələrin Korporativ İdarəetmə Təcrübələrinə dair İƏİT-in Qaydaları

Dövlətə Məxsus Müəssisələrin Korporativ İdarəetmə Təcrübələrinə dair İƏİT-in yeni Qaydaları hökumətlərə dövlət müəssisələrinə qarşı mülkiyyət hüquqlarından istifadə etmək qaydasını qiymətləndirməyə və təkmilləşdirməyə kömək edən beynəlxalq standartdır. İƏİT-in üzvü olan və olmayan bir çox ölkələrin geniş təcrübələrinə əsaslanan bu Qaydalar müəssisələrin dövlətə məxsus olduğu halda həll olunmalı korporativ idarəetmə məsələlərinə dair konkret tövsiyyələr verir.

Bir çox ölkələrin islahatlarında dövlətə məxsus müəssisələrin korporativ idarəetmə təcrübələrinin yaxşılaşdırılması prioritet məsələyə çevrilməkdədir. Dövlət sektorunda səmərəliliyin və şəffaflığın artması, xüsusilə də dövlət mülkiyyətinin mühüm olduğu ölkələrdə, iqtisadi cəhətdən böyük fayda gətirəcəkdir. Bundan əlavə, dövlət və özəl şirkətlərin rəqabət apara bilməsi üçün bazarda bərabər şəraitin yaradılması biznes sektorunun sağlam və rəqabətli olmasına kömək edəcəkdir. Beləliklə, bu Qaydalar yerli və beynəlxalq səviyyədə dövlətə məxsus müəssisələrin korporativ idarəetmə təcrübələrini təkmilləşdirmək üçün bir alətdir.

Dövlətə Məxsus Müəssisələrin Korporativ İdarəetmə Təcrübələrinə dair İƏİT-in Qaydalarına dair hər hansı sualınız və ya məlumata ehtiyacınız yarandıqda, aşağıdakı elektron ünvandan istifadə edərək İƏİT-in Korporativ Əlaqələr şöbəsi ilə əlaqə saxlaya bilərsiniz: corporate.affairs@oecd.org. dövlət aktivlərinin özəlləşdirilməsi və korporativ idarəetməsi sahəsində İƏİT-in apardığı iş haqqında və hazırkı Qaydalar əlavə məlumat əldə etmək üçün www.oecd.org/daf/corproate-affairs/soe/ internet saytına müraciət edə bilərsiniz.

**www.oecd.org**

OECD